


## Şuşa zəfərimizin tacıdır!

7

SƏS

№ 057 (6498) 5 aprel 2022-ci il. Qiymıəti 60 qəpik

# Son 18 ilin uğurları:

İlham Əliyev: "Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir"

## Prezidentin verdiyi bütün vədlər gerçəyə çevrilir!




3

# ERMƏNİSTANDA "bir addım sağa, bir addım sola güllələnmədir" ab-havası




8

Armenian-report: "Paşinyan iki od arasında qalıb: "Qərb tərəfindən məyusluq", ya da Moskva tərəfindən "sanksiyalar"

## Qərb ancaq Rusiyaya qarşıdır



6

## "Türk dünyasının mədəniyyət paytaxtı" seçilən tarixi Şuşamız




5

# Mbappe: "Təklifləri nəzərdən keçirirəm"



16



## Azad olunan ərazilərdə hansı məhsullar yetişdiriləcək?

## "Etibarsız" etibarnamə - Avtomobil satarkən diqqətli olun!





"Azərbaycan dövləti Prezidentin liderliyi ilə şərəfli bir dövrünü yaşayır"

9

"Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz davamlı olaraq inkişaf edir, güclənir, regionda güc...



## Gecə klubu, ya şər yuvası

10

Həmişə yeraltı və yerüstü sərvətləri ilə məşhur olan Bakı indi də turizm mərkəzinə çevrilir ki, bu da zövqlə səyahət...

# "3890 nəfər azərbaycanlı itkin düşüb"

## Prezident İlham Əliyev İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktorunu qəbul edib



Prezident İlham Əliyev dünən İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul edib. Dövlətimizin başçısı birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşmüş hesab olunduğunu, onların bir çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığını qeyd edib. Prezident İlham Əliyev görüşdə bildirib ki, Azərbaycan humanitar xarakter daşıyan bu məsələ ilə bağlı dəfələrlə Ermənistan tərəfinə müraciət etsə də, Ermənistan tərəfindən konstruktiv əməkdaşlıq və xoş niyyət nümayiş olunmayıb.

Dövlətimizin başçısı bu yaxınlarda Xocavəndin Edilli kəndində belə bir kütləvi məzarlığın müəyyən olunduğunu, qazıntı işləri apararaq orada basdırılmış şəxslərin qalıqlarının aşkara çıxarıldığını və bu qalıqların DNT analiz təyinatlı laborator müayinələrə təqdim edildiyini diqqətə çatdırıb.

Katrin Bomberger itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsində Azərbaycanla yaxından əməkdaşlıq etməyə hazır olduğunu bildirərək qeyd edib ki, təşkilat dünyanın müxtəlif ölkələrində, o cümlədən Qərbi Balkanlarda genişmiqyaslı fəaliyyət göstərib və itkin düşmüş hesab olunan minlərlə insanın taleyini müəyyən edərək onların ailəsinə məlumat verilməsində öz rolunu oynayıb.

DNT analiz nümunələrinin toplanması və laborator analizlər vasitəsilə insanların şəxsiyyətinin müəyyən edilməsinin vacibliyini bildirən Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumat bazasının yaradılması, kütləvi məzarlıqlarda birgə qazıntıların aparılması, yerli mütəxəssislərin peşəkarlıqlarının artırılması kimi işlərə öz töhfəsini verməyə hazır olduğunu diqqətə çatdırıb. O, həmçinin əlavə edib ki, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi etimadın yaradılması və davamlı sülhün təmin edilməsi baxımından vacibdir.



# "10 noyabr Bəyanatından bəri 200-dən çox insan minaların partlaması nəticəsində həlak olub"

## Prezident İlham Əliyev Avropa Şurasının Baş katibinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev aprelin 4-də Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı özünün Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi vaxtilə AŞPA-dakı fəaliyyətini xatırladıb. Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığının konstruktiv dialoq əsasında inkişaf etməsinin vacibliyini bildirərək, Avropa Şurasına üzvlük çərçivəsində ölkəmizin qanunvericilik bazasının müasirləşdirilməsi istiqamətində ardıcıl addımların atıldığını diqqətə çatdırıb.

Ölkəmizə səfər etməkdən məmnunluğunu bildirən Mariya Peyçinoviç Buriç Azərbaycanın Avropa Şurasında üzvlüyünün yüksək dəyərləndirildiyini dedi və üzvlük prosesi çərçivəsində ölkəmizin Avropa Şurasının çox sayda konvensiya və müvafiq sənədlərinə qoşulduğunu və bu əsnada işin aparıldığını bildirib.

Prezident İlham Əliyev regionda yaranmış yeni vəziyyət, Azərbaycanın Ermənistanla münasibətləri normallaşdırılması üçün irəli sürdüyü təkliflər, həmçinin işğaldan azad olunmuş ərazilərdə mövcud vəziyyət barədə Avropa Şurasının Baş katibinə məlumat verib.

Dövlətimizin başçısı birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşdüyünü qeyd edib və onların taleyinin müəyyənləşdirilməsi üçün Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri haqqında məlumatın verilməsinin vacibliyini vurğulayıb. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycanın mina problemindən ciddi şəkildə əziyyət çəkdiyini, 2020-ci il 10 noyabr Bəyanatından bəri 200-dən çox insanın minaların partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını diqqətə çatdırıb. Prezident İlham Əliyev bildirib ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib. Ancaq buna baxmayaraq, müharibə dövründə Ermənistan tərəfindən çox sayda hərbi cinayətlərin törədildiyini bildirən dövlətimizin başçısı hərbi əməliyyatlar zamanı Ermənistanın şəhərlərimizi raketlərlə atəşə tutması, nəticədə aralarında uşaq və qadınlar da olmaqla 100-dən çox mülki şəxsin həlak olması faktını vurğulayıb.

Avropa Şurasının Baş katibi Azərbaycanın bu sahədə nümayiş etdirdiyi yüksək siyasi iradənin təqdir olunduğunu bildirib.

Mariya Peyçinoviç Buriç Avropa Şurasının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və iki ölkənin cəmiyyətləri arasında etimadın qurulması prosesində platforma rolunu oynamağa hazır olduğunu qeyd etdi.

# İordaniya qəzeti:

## İƏT Azərbaycana təzminat ödənilməsini tələb edib

***İordaniyanın "Əl Ənbat" qəzetində rus əsilli iordaniyalı jurnalist Yelena Neduqinanın "İƏT Azərbaycana təzminat ödənilməsini tələb edib" sərlövhəli məqaləsi dərc olunub.***




AZƏRTAC xəbər verir ki, məqalədə bu yaxınlarda İslamabadda keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 48-ci iclasının qətnaməsində 57 üzvü olan və BMT-dən sonra dünyanın ikinci beynəlxalq təşkilatı sayılan İslam Əməkdaşlıq Təşkilatının Ermənistanın Azərbaycana qarşı təcavüzü və Xocalı ilə bağlı qəbul etdiyi 4 qətnamədən birinin - "Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycanın ərazilərində İslam tarixi və mədəni ziyarətgahlarının dağıdılması və təhqir edilməsi" olduğu diqqətə çatdırılıb. Müəllif vurğulayıb ki, qətnamədə işğal dövründə Azərbaycan ərazilərindəki İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının dağıdılması, talan edilməsi, oğurlanması, qanunsuz yerdəyişməsi və ya mənimsənilməsi, eləcə də bu obyektlərə qarşı vandallıq aktlarının törədilməsi qətiyyətlə pislənilib, məscidlərin Ermənistan tərəfindən təhqir olunması kəskin pislənilib. Ən əsası isə, bu sənəddə Azərbaycanın ona dəymiş zərərə görə təzminat tələb etmək hüququ, Ermənistanın isə bu təzminatı ödəmək məsuliyyəti təsdiq olunub.

İordaniyalı jurnalist yazıb ki, İƏT və Ərəb Dövlətləri Liqası dəfələrlə Azərbaycanın ədalətli mövqeyini, ərazi bütövlüyünü dəstəkləyib. İslam ölkələri xarici siyasət idarələri rəhbərlərinin son iclasında imzalanmış "İslamabad Bəyannaməsi"ndə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işlərinə dəstək ifadə olunub. Sənəddə qeyd olunub ki, Azərbaycan ilə Ermənistan arasında silahlı münaqişənin sona çatmasını alqışlayan İƏT-in xarici işlər nazirləri Ermənistanın təcavüzündən ciddi zərər çəkmiş işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması səylərində Azərbaycan hökuməti və xalqı ilə tam həmrəy olduqlarını bir daha təsdiq edib, bu işlərin məcburi köçkünlərin tezliklə təhlükəsiz və ləyaqətli şəkildə öz torpaqlarına qayıtmasına imkan yaratmaq məqsədi daşıdığını vurğulayıblar.

# Son 18 ilin uğurları:

## Prezidentin verdiyi bütün vədlər gerçəyə çevrilir!



## İlham Əliyev:

### "Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir"

Bütün dünyada seçkilər dövlətin və ictimai həyatın idarə olunmasında vətəndaşların ən kütləvi iştirak formasıdır. Bu mənada, xalqın iradəsinin ifadəsi sayılan seçkilərin demokratik, azad keçirilməsi ölkədəki ictimai-siyasi sabitlikdən, ilk növbədə normal seçki keçirilməsinə əsaslı şərait yaradılmasından asılıdır. Bununla yanaşı, istənilən dövlətdə seçkilərin ədalətli və şəffaf həyata keçirilməsi həmin cəmiyyətin demokratik mühitinin yüksək olmasından xəbər verir. Bu prosesin məntiqi yekunu olaraq hər bir xalq öz taleyini inandığı, etibar etdiyi siyasi qüvvəyə bağlayır. 2018-ci il aprel ayının 11-də ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərdə Cənab İlham Əliyevin ümumxalq səsverməsində 86,03 faiz səs qazanaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalqımız bu düzgün seçimi bugünkü qələbə tarixinin yazılmasında vacib rol oynadı. Prezident İlham Əliyev ötən 18 il ərzində millətimiz üçün ən ağrılı bəla olan, dövlətimiz üçün kifayət qədər ciddi çağırış hesab edilən erməni işğalına son qoydu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Ona göstərilən bu etimada görə xalqa ünvanladığı müraciətində demişdir: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımızın əsas şərtidir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Xalq-iqtidar birliyi bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik".



Azərbaycanın çağdaş tarixində yeni intibah mərhələsinin əsasını qoyan, milli mənafelərə söykənən strateji siyasi kursun ardıcıllığını təmin edən, təcavüzkarlığı həyat tərzinə çevirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 18 il ərzində sözü ilə əməli bir olan, hər bir vətəndaşının problemini öz problemi, qayğısını öz qayğısı kimi qəbul edən, iştirak etdiyi bütün seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini, etimadını qazanan, parlaq zəkası, peşəkar idarəçilik qabiliyyəti və praqmatik yanaşması ilə xalqının Prezidenti olduğunu əməli və yorulmaz fəaliyyəti ilə sübuta yetirmişdir.

### GERÇƏKLİYƏ ÇEVRİLƏN VƏDLƏR...

Bu gün 18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyərək son 17 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz QARABAĞ AZƏRBAYCANDIR!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət, Qələbə Zəfərimizə nail olduq!

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin 2021-ci ilin martın 5-də keçirilən qurultaydakı geniş nitqi çox zəngin və keçilmiş yola verilən qiymətlə, dərin təhlillə səciyyəvi oldu. Dövlət başçısı yüksək intellektual səviyyəsi ilə seçilən proqram xarakterli çıxışı zamanı ölkəmizin son illərdə keçdiyi tarixi yola bir daha nəzər saldı. Bildirdi ki, Azərbaycan bu gün bölgənin və regionun ən qüdrətli ölkələrindən birinə çevrilib: "Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

Dövlət başçısı bildirdi ki, bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir: "Biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, bu islahatların çox böyük əhəmiyyəti var. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bizim təşəbbüslərimizin, islahatlarımızın böyük rolu vardır". "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan 18 il müddətində Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Azərbaycan kimi çox mühüm geosiyasi mövqeyə və əhəmiyyətə malik olan, qlobal maraqların və ziddiyyətlərin kəsişdiyi məkanda yerləşən bir ölkəyə başçılıq etməsinə baxmayaraq çox qısa bir zaman kəsiyində bütün dünyada böyük hörmət və nüfuz qazandı. Cənab Prezident İlham Əliyev dövlət başçısı kimi nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti ilk gündən ona böyük ictimai dəstək, xalqın sonsuz inam və etibarını qazandırmışdır.

Ardı Səh. 4

# Son 18 ilin uğurları:

## Prezidentin verdiyi bütün vədlər gerçəyə çevrilir!







Əvvə səh. 3

Son 18 il ərzində Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasət, dərin islahatlar strategiyası Azərbaycanın dayanıqlı inkişafını təmin edib. Azərbaycan hərtərəfli inkişaf yolu keçib. Elə bir sahə yoxdur ki, orada yüksək inkişaf göstəriciləri qeydə alınmasın. Bütün sahələrdə ardıcıl islahatlar həyata keçirilib və əhəmiyyətli uğurlar qazanılıb. Bunun əsasında isə uğurlu iqtisadi siyasət dayanır. Regionların davamlı sosial-iqtisadi inkişafı təmin edilib, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri genişlənib, sosial məsələlər uğurla həll olunub. Bununla yanaşı, ölkənin artan imkanları hesabına insan kapitalının formalaşması, əhalinin sosial təminatının, xalqın rifahının daha da yüksəlməsinə yönəlmiş, Azərbaycan nümunəvi sosial siyasət həyata keçirən dövlətə çevrilmişdir.

### Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir!

Bəli, bu, həqiqətən də belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.Ölkə başçısı möhtərəm İlham Əliyev cənablarının birbaşa ideya müəllifi olduğu bir sıra sosial-iqtisadi mahiyyətli Dövlət Proqramlarının qəbul edilməsi və onlarının icrası bu istiqamətdə atılmış strateji addımlar kimi dəyərləndirilməlidir. Son 18 ilər ərzində Azərbaycanın sürətli inkişafı məhz müasir innovasiyaların tətbiqinə verilən önəmlə bağlıdır. Bu sıradan "ASAN Xidməti" İctimai xidmət sahəsinin fəaliyyəti dövlət idarəetmə sahəsinə aiddir. Bilavasitə dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə yaradılan və fəaliyyət göstərən "ASAN xidmət" dən məqsəd və dövlət orqanlarının işində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin yüksək keyfiyyətlə, rahat və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi olub.

Son 18 il ərzində İlham Əliyev cənablarının rəhbərliyi altında Azərbaycan böyük və şərəfli yol keçmişdir. Prezidentin təbirincə desək, ölkəmiz bütün sahələr üzrə möhtəşəm uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu daha da yüksəlmiş, aparılan siyasi-iqtisadi islahtlar isə dünya birliyi tərəfindən layiqincə qiymətləndirmişdir. Azərbaycanda təhlükəsizlik, sabitlik təmin edilmişdir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir.

### QLOBAL PANDEMİYAYA QARŞI SAVAŞDA AZƏRBAYCAN REALLIĞI

Dünyanın koronavirus pandemiyasından (COVID-19) ciddi ziyan çəkdiyi, hətta inkişaf etmiş ölkələrin belə bu qlobal bəladan sarsıldığı bir zamanda Azərbaycanın pandemiyaya qarşı mübarizədə mütərəqqi model ortaya qoyması bir daha təsdiqləyir ki, ölkəyə rəhbərlik edən liderin müdrik qərarları bəzən bütöv bir xalqı faciədən hifz edir. Ümumiyyətlə, pandemiyanın yayılmağa başladığı dövrdən Azərbaycan rəhbərliyi çevik qərarlarla, bu bəlanın törədə biləcəyi faciənin miqyası dəqiq təhlil edilməklə mübarizə tədbirlərinə başlanıldı. Ölkənin səhiyyə sistemi qısa zamanda virusla mübarizəyə istiqamətləndirilib, xüsusi karantin rejimi tətbiq olunub, modul tipli xəstəxanalar inşa edilib, maska istehsalı fabriki açılıb, 20-dən çox müasir laboratoriya quraşdırılıb.

Azərbaycan Prezidenti çıxışlarında, nitqlərində vurğulayır ki, pandemiyadan çıxış yolu yalnız qlobal həmrəylikdən, dünya dövlətlərinin ümumi səylərini birləşdirməsindən asılıdır. Təsadüfi deyil ki, pandemiyaya qarşı mübarizədə ölkələrin birgə fəaliyyəti, çoxtərəfli əməkdaşlıq təklifini də məhz İlham Əliyev irəli sürmüşdü. Prezidentin BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünün dünyanın 130-dan çox ölkəsi tərəfindən dəstəklənməsi də bunun bariz nümunəsidir. Ötən ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyasına həsr olunan xüsusi sessiyasında İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi çıxış edərək bütün ölkələri bu mübarizədə həmrəyliyə çağırdı, birtərəfli addımlar atılmamasının, peyvəndin bütün ölkələrin xalqları üçün əlçatan olmasının vacibliyini önə çəkdi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə bu problemin aradan qaldırılması istiqamətində daha bir uğurlu addım bu ilin mart ayında atıldı. BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edildi. Bununla da Azərbaycan növbəti dəfə qlobal həmrəyliyə öz töhfəsini verdi. Qeyd edək ki, aprelin 1-də ÜST-ün baş direktorunun təşəbbüsü ilə İlham Əliyevlə Tedros Adhanom Gebreyesusun videokonfrans formatında görüşü və aprelin 6-da bu təşkilatın İsveçrənin Cenevrə şəhərində yerləşən mənzilqərargahında Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş tədbirində səslənən fikirlər də deyilənləri bir daha təsdiqlədi. Baş direktor Azərbaycanın təşkilata bütün sahələrdə, o cümlədən maliyyə sahəsində 10 milyon dollar dəyərində etdiyi yardımı yüksək qiymətləndirərək ölkəmizin ÜST-ə siyasi və mənəvi dəstəyinin çox dəyərli olduğunu qeyd etdi.

Azərbaycanın pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk dövlətlərdən biri olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin təşəbbüsü ilə reallaşan tədbirlərin əhəmiyyətini və respublikamızın beynəlxalq məsuliyyətinə sadiq olaraq ÜST-ə, eləcə də 30-dan çox ölkəyə könüllü humanitar və maliyyə yardımı göstərdiyini diqqətə çatdırdı. Bir sözlə, səhiyyə sahəsində qazanılmış uğurlar və qarşıya yeni hədəflərin qoyulması imkanı son 18 il ərzində Azərbaycanın bütün bölgələrində yüzlərlə xəstəxananın yenidən tikilməsi, yaxud əsaslı təmir edilməsi ilə sıx bağlıdır. Bir sözlə, sözü ilə əməli hər zaman üst-üstə düşən Prezident İlham Əliyev son 18 ildəki uğurları bir daha təsdiqləyir ki, hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqla bundan sonra da daha böyük nailiyyətlərə imza atacağının şahidi olacaqlar.

***RƏFİQƏ KAMALQIZI***

# “Türk dünyasının mədəniyyət paytaxtı” seçilən tarixi Şuşamız

Şuşa şəhərinin 2023-cü il üçün ”Türk dünyasının mədəniyyət paytaxtı” seçilməsi əlbəttə ki, heç də təsadüfi deyil. Əsrarəngiz, füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, zəngin irsi bu şəhərin ”Türk dünyasının mədəniyyət paytaxtı” elan olunmasında əsas faktorlardır. Bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunub. TÜRKSOY-un təşəbbüsü ilə türkdilli dövlət, yaxud regionların şəhərlərindən hər il biri Türk dünyasının mədəniyyət mərkəzi seçilir. Türk dünyasının mədəniyyət paytaxtı seçilmiş şəhərlərdə il ərzində Türk dünyasının mədəni tədbirləri keçirilir. Xatırladaq ki, TÜRKSOY-un üzv-şəhərlərindən hər il birinin illik olaraq Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi barədə qərar 2010-cu ildə türkdilli ölkə başçılarının X sammitində qəbul olunmuşdur. Türk dünyasının birinci mədəniyyət paytaxtı 2012-ci ildə TÜRKSOY şurası tərəfindən Qazaxıstan paytaxtı Astana seçilmişdir. Daha sonra Əskişəhər, Kazan, Marı və Türkistan şəhərləri də növbə ilə Türk dünyasının mədəniyyət paytaxtları seçilib. 2016-cı il üçün türk dünyasının mədəniyyət paytaxtı seçilən Şəki şəhəri əsrlər boyu Böyük İpək Yolu üzərində yerləşən mühüm sənət və ticarət mərkəzi olub. Bu gün Şəki orta əsr şəhərlərinə məxsus olan şəhərsalma mədəniyyətini özündə qoruyub saxlayan bənzərsiz məkandır. Karvansaraylar, məscidlər, minarələr, evlər, qala divarları, körpülər şəhərin qədim memarlıq üslubundan xəbər verir. Hər il keçirilən beynəlxalq festivallar, tədbirlər xalqımıza xas olan zəngin tarixi-mədəni irsi təbliğ etməyə, bölgənin turizm potensialını genişləndirməyə imkan yaradır.

### NƏİNKİ AZƏRBAYCANIN, TÜRK DÜNYASININ, ELƏCƏ DƏ BÜTÜN DÜNYANIN MƏDƏNİYYƏT PAYTAXTI OLUNMAĞA LAYİQ ŞƏHƏR

Bu gün isə Qarabağın tacı olan Şuşanın ”Türk dünyasının mədəniyyət paytaxtı” seçilməsi böyük həqiqətlərə əsaslanır. Şuşa şəhəri nəinki Azərbaycanın, türk dünyasının, eləcə də bütün dünyanın mədəniyyət payxatı elan olunmağa layiqdir. Milli-mənəvi dəyərlərinin beşiyi kimi tanınan Şuşa əsrlərin sınağından çıxaraq yüzilliklərin daş yaddaşında tarix yazıb. Bu tarix Şuşa haqqında olan bütün məlumatları özündə əks etdirib. Zəngin və şanlı tarixi keçmişə malik olan Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən, məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Bu şəhərin tarixinə nəzər salsaq görərik ki, 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra keçmiş Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq - Gəncə və Qarabağ xanlıqları yarandı. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. Tarixi mənbələrdə göstərilir ki, Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, Qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə ”Pənahabad”, sonradan isə ”Şuşa qalası” və ”Şuşa” adlandırılmışdır.

XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdi. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Mənbələrdə qeyd olunduğu kimi, məşhur rəssam V.Vereşşagin Şuşanı görəndən sonra yazırdı: ”Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir”.

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi.

### QAFQAZIN MUSİQİ MƏRKƏZİNƏ ÇEVRİLMİŞ SƏNƏT MƏBƏDİ

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı ”Kiçik Paris”, ”Qafqazın sənət məbədi”, ”Azərbaycan musiqisinin beşiyi” və ”Zaqafqaziyanın konservatoriyası” adlandırırdılar. Azərbaycan dramaturgiyasının banisi M.F.Axundov öz komediyalarını geniş şəkildə yaymaq məqsədi ilə 1852-ci ildə teatr tamaşalarının intişar tapdığı Şuşa qalasına gələrək, arzusunu reallaşdırıb. V.Şekspirin ”Otello”su Azərbaycanda ilk dəfə 1893-cü ildə şuşalı müəllim, dramaturq və jurnalist Haşım bəy Vəzirov tərəfindən tərcümə edilərək səhnələşdirilib. Daha sonra C.Məmmədquluzadənin ”Ölülər” tragi-komediyası ilk dəfə 1916-cı ildə Xurşudbanu Natəvanın qızı Xanbikənin evində yerləşən məktəbdə tamaşaya qoyulmuşdu. XX əsrin əvvəllərindək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə, xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur.




”Türk dünyasının mədəniyyət paytaxtı” seçilən Şuşa Azərbaycanın mədəniyyət beşiyidir. Şuşada dünyaya göz açan xalqımızın mənəviyyatı və mədəniyyəti üçün özlərini fəda edən Azərbaycanın mədəniyyət və incəsənətinə töhfə vermiş mədəniyyət və incəsənət tarixinə ədəbi iz salmış Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Nəcəf bəy Vəzirov, Zülfüqar Hacıbəyli, Şəmsi Bədəlbəyli, Barat Şəkinskaya, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyli, Bülbül, Niyazi, Mehdi Məmmədov, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Məhərrəm Əlizadə və onlarla belə sənətkarlarin yaratdıqları sənət inciləri tarixi nümunələrdir.

Məlum olduğu kimi, sovet dövründə Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana komleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Ulu Öndər, eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu. Görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci ildə acılışı olmuşdur.

### ERMƏNİ VANDALLIĞI: TALAN EDİLMİŞ, DAĞIDILMIŞ VƏ MƏHV ABİDƏLƏR

1982-ci il iyulun 29-dan - avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Ulu Öndər Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitut açıldı.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Mərdinli, Saatlı, Köçərli kimi məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Qız məktəbi, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Şuşanın abidələr şəhəri olduğunu söyləyən Ümummilli Lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, ”Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur”.

### ”ŞUŞA NƏİNKİ AZƏRBAYCANIN, BÖLGƏNİN MƏDƏNİ PAYTAXTI SAYILA BİLƏR”

44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şuşa işğaldan azad olundu. 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində Cənab Prezident demişdir: ”İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq”.

### ŞUŞA ŞƏHƏRİ XALQIMIZ ÜÇÜN SON DƏRƏCƏ ƏZİZ, MÜQƏDDƏS BİR MƏKANDIR

Dövlət başçısı Azərbaycan Respublikasında 2022-ci ilin ”Şuşa İli” elan edilməsi haqqında Sərəncamı bir daha ölkəmizdə milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunmasına dövlət tərəfindən hər zaman xüsusi diqqət və qayğının göstərildiyini nümayiş etdirir. Sərəncam həm də 2022-ci ildə Şuşada və işğaldan azad olunmuş digər ərazilərimizdə aparılan quruculuq işlərinin daha böyük vüsət almasına səbəb olacaq. Prezident İlham Əliyev tərəfindən imzalanmış Sərəncamda qeyd olunduğu kimi, Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Şuşa milli mədəniyyətimizin, incəsənətimizin beşiyidir. Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edib. ”Şuşa şəhəri buna layiqdir”, - deyən Cənab Prezident bildirib ki, Şuşa nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşdu. Toy-büsatlı Şuşamızda yenidən ”Xarı Bülbül” Beynəlxalq musiqi festivalı keçirildi. Artıq hər kəs rahatlığa qovuşub. Dini-mədəniyyət abidələrimiz təmir bərpa olunur. Üzeyirin, Natəvanın, Bülbülün güllələnmiş heykəlləri də Şuşada rahat nəfəs alır. Uzun illər R.Mustafayev adına Azərbaycan Dövlət Muzeyində saxlanılan heykəllər rahatlıq tapıb. Şuşa, ”Cıdır düzü”, ”İsa bulağı” həsrətində olduğu sakinlərinə, Azərbaycan musiqisinə qovuşub.

Görüləcək işlər çoxdur. Qısa bir zamanda Şuşa cənnəti xatırladacaq bir məkana çevriləcək. ”Türk dünyasının mədəniyyət paytaxtı” çərçivəsində Şuşamızda keçiriləcək tədbirlərdə iştirakçı olacaq hər bir kəs bu möcüzələr diyarımla xoş təəssüratlarla ayrılacaqlar.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Qərb ancaq Rusiyaya qarşıdır

**Bəzi ölkələr Avropa və ABŞ-ı dəstəkləməkdə tələsmirlər. Ölkələrin böyük əksəriyyəti Qərbin hərbi siyasətlərini bəyənmir. Bu barədə İngiltərənin "The Guardian" nəşri də yazır. Nəşr yazır ki, ABŞ-ın misli görünməmiş təzyiqlərinə baxmayaraq, Asiya, Afrika və Latın Amerikası ölkələri Qoşulmama Hərəkatının mövqeyini təkrarlayaraq neytral olaraq qalırlar. Doğrudur, bu nəşrdə qeyd olunanlar Ukraynada hiddət və etirazlara da səbəb olub, amma hər bir halda, tanınmış, məşhur mətbu orqan olan "The Guardian" bunu açıq şəkildə yazıbsa, deməli, hansısa əsasa görə yazıb.**

Qeyd edək ki, Ukrayna ərazisinə daxil olan rus hərbçilərdən, Rusiyanın qəddar işğalından baş götürüb qaçan ukraynalı qaçqınların sayının 1 milyona çatmasından sonra BMT Təhlükəsizlik Şurası Baş Assambleyanın təcili iclasını çağırıb. Bu heç də təsadüfi deyildi. Bilirik ki, orada 193 ölkə "Rusiyanın Ukraynaya təcavüzü" ilə bağlı qətnaməni nəzərdən keçirib və 141 lehinə, 35 bitərəf, cəmi 5 səs isə əleyhinə olmaqla böyük səs çoxluğu ilə həmin qətnamənin təsdiqinin lehinə səs verib. Hətta Serbiya və ya Macarıstan kimi Rusiyanın Avropa qitəsindəki ən yaxın müttəfiqlərindən bəziləri də işğalı pisləmək üçün səs verib. "Baş Assambleyanın mesajı uca səsli və aydındır", deyə BMT-nin baş katibi Antonio Quterreş də açıq-aydın bəyan edib. Maraqlıdır, bu mesaj tam olaraq nədən ibarətdir? Son günlər bir çox şərhçilər Vladimir Putin hökumətinə qarşı Qərbin və dünyanın birliyini nümayiş etdirmək üçün BMT-nin qətnaməsinin qlobal xəritə olduğunu bildiriblər. Lakin Rusiyanın işğalının geosiyasi nəticələrini anlamaq üçün Baş Assambleyanın diplomatik teatrından kənara baxmaq və bu ölkələrin əslində sürətlə artan müharibə ilə məşğul olduqlarını araşdırmaq lazım gəlir. Bunun üçün isə tamamilə fərqli dünya xəritəsindən, yəni ABŞ və onun müttəfiqlərinin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalarda qlobal iştirak xəritəsindən başlamaq lazımdır.

Etiraf etmək lazımdır ki, bu xəritələr arasındakı kontrast, kəskin fərq bundan daha təəccüblü ola bilməzdi. ABŞ, Böyük Britaniya, Kanada, Cənubi Koreya, İsveçrə, Yaponiya, Avstraliya, Yeni Zelandiya, Tayvan, Sinqapur, Aİ olmaqla, bu genişlənmiş koalisiyadan başqa, çox az ölkə Putin hökumətinə qarşı iqtisadi müharibədə iştirak etmək yolunu seçib. Əksinə, Çin, Hindistan, Braziliya, Banqladeş, Pakistan, İndoneziya olmaqla, dünyanın bir çox ən böyük dövlətləri də buna qoşulmaqdan imtina ediblər. "Biz başqa bir ölkənin atdığı addımları kor-koranə izləməyəcəyik", deyə İndoneziya Xarici İşlər Nazirliyinin sözçüsü bu yaxınlarda keçirdiyi mətbuat konfransında bəyan edib. Həmçinin, Latın Amerikası da neytrallıq öhdəliyində olduğu kimi sabit qalır. "Bu müharibənin bizə aidiyyəti olduğunu düşünmürük", deyə öz verdiyi açıqlamasında bəyan edən Meksika prezidenti Andr?s Manuel L?pez Obrador, "Biz heç bir iqtisadi repressiya etməyəcəyik, çünki bütün hökumətlərlə yaxşı münasibətlər qurmaq istəyirik", söyləyib. Argentinanın xarici işlər naziri Santiago Cafiero ölkəsinin yeni sanksiyalar paketində iştirak etməməsi ilə bağlı qətiyyətli mövqeyini bildirib və hətta bəyan edib ki, Argentina BMT-də Rusiyanın hərəkətlərini pisləmək üçün də səs verə bilərdi. XİN rəhbəri onu da vurğulayıb ki, onların sülh və harmoniyaya nail olmaq, yaxud insanların həyatını xilas etməyə kömək edəcək səmimi dialoq qurmaq mexanizminin olduğuna Argentina inanmır.

Latın Amerikasının mövqeyi Afrikada da rezonans doğurub. "Beş əsrdir ki, biz Afrikanı, onun insan və təbii ehtiyatlarını talamaq istəyən Avropa güclərinin əlində "piyada fiquru" olmuşuq. Bu sözləri Imagine Africa İnstitutunun prezidenti və Beynəlxalq Amnistiya Təşkilatının keçmiş baş katibi Pierre Sanet deyir. Ümumiyyətlə, Rusiya ordusunun Ukraynaya amansızcasına irəliləməsi fonunda bir çox məktublar, məqalələr və Twitter şərhləri Putin hökumətinə qarşı çıxmaq istəmədikləri üçün "Qərb Sol"a ünvanlanır. Ukraynanın işğalı Putini təcrid etmək, zəiflətmək və nəticədə Putini devirmək cəhdində Qərbə dəstək olmaq üçün güc və inamla "psevdo-iştirakçılardan" xilas olmaq üçün "sınaq" olaraq qiymətləndirilir.

Sanksiyaların xəritəsi göstərir ki, əslində parçalanma solla sağ arasında, hətta şərqlə qərb arasında da deyil. Əksinə, xəritə Şimal və Cənub arasında, inkişaf etmiş və inkişaf edən deyilən ölkələr arasında bölünməni göstərir və bu tektonik sürüşmə göstərməklə, xəritə bizə çoxqütblülük dövrünün geosiyasəti haqqında vacib şeylər deyə bilər. Nəzərə almaq lazımdır ki, Çinin sürətli yüksəlişi, nəticədə ABŞ-ın reaksiyası bir çox şərhçini yaxınlaşan soyuq müharibəni proqnozlaşdırmağa sövq etdiyi də göz önündə oldu, öz təsdiqini tapdı. Vladimir Putinin buna, bu müharibəyə belə qəflətən başlayacağını çox az adam gözləyirdi. "Putinin Ukraynaya hücumu, təcavüzü amerikalıların tarixində 30 illik fasiləyə son qoydu", deyə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş direktoru Robert Qeyts "The Washington Post" qəzetində yazır. Rusiya və rus mədəniyyəti nümayəndələrinin Qərb institutlarından dərhal qovulması Soyuq Müharibədən sonrakı uzun yuxunun həqiqətən də bitə biləcəyini deməyə əsas verir. "Putinin müharibəsi demokratik hökumətlərə yeni dünyanın reallıqlarını dərk etmək üçün lazım olan soyuq duş effektini təmin etdi", deyən Qeyts üçün ən yaxşı xəbər odur ki, Bayden administrasiyası artıq soyuq müharibə xəbərdarlığındadır. Sovet İttifaqının dağılmasından sonrakı həmin o uzun 30 illik fasilə zamanı dünya ölkələri, ABŞ-ın tərəfində olmaq və ya tək qalmaq kimi kifayət qədər sadə seçim qarşısında qalıblar. Bəzi ölkələr bu hegemon qüvvəyə qarşı kollektiv müqavimətdə birləşməyə belə çalışırdılar.

Bu gün dünya ölkələri Rusiya və ya Qərb olmaqla yenidən kiminsə tərəfində olmağa çağırılır. Çox keçməz ki, bunun Qərb və ya Çin arasında seçim halına gələcəyi düşünülür. Bunu bütün dünya analitikləri belə hesab edir və belə proqnoz verirlər. Analitiklərə görə, sanksiya xəritəsindən göründüyü kimi, böyük dövlətlər arasında bu qarşılıqlı təzyiq birtərəfli boykot tələbləri əvəzinə beynəlxalq hüququn daha universal tətbiqini tələb edən qoşulmama hərəkatını da yarada bilər. Bu, neytral mövqenin, şübhəsiz ki, nəticələri olar, amma neytrallıq mövqeyi ilə bağlı eyni risklər bu gün də görünməkdədir. Bununla yanaşı, digərlərinə hələ sanksiyalar barəsində düşünülmür. Hələlik çağırışlarla kifayətlənilir. Deməli, hələki Qərb ancaq Rusiyaya qarşıdır, yalnız rusların sıxışdırılması planlaşdırılır. Nəticələrin necə olacağı, sözsüz ki, hadisələrin gedişindən bilavasitə asılı olacaq və bunu indidən söyləmək mümkün deyil. Ən azından, əks halda, yəni Rusiyanın Ukraynadakı təcavüzü ilə bağlı digərlərinin də mövqeyinə görə sanksiyalar düşünüləcəyi təqdirdə ilk sanksiya tətbiq olunan Ermənistan olmalıdır. Daha dəqiq desək, Rusiyanın Ukraynaya qarşı təcavüzünü, işğalını gizli şəkildə də olsa, aşkar da olsa dəstəkləyən Ermənistan ilk növbədə cəzalandırılmalıdır. Ermənistan isə hələlik Qərbin Cənubi Qafqazda iyun meydançasıdır və elə buna görə hələki ermənilərin burunlarının əzilməsi barədə düşünülmür, amma bunun sonsuza qədər davam edəcəyini kimsə təsdiqləyə bilməz. Digər tərəfdən də görünür ki, hələlik Qərb ancaq və ancaq Rusiyaya qarşıdır və Rusiya sanki Qərbin gözündə yalnız düşmən görünür.

***İnam Hacıyev***

# Kaş ki, yaşanmazdı amma bu da bir dərs olsun

***3 aprel saat 03:00 radələrində Bakı şəhəri Səbail rayonu Tərlan Əliyarbəyov küçəsində yerləşən obyektdə partlayış baş verib. Hadisə yerinə FHN-in Dövlət Yanğından Mühafizə Xidməti və Xüsusi Riskli Xilasetmə Xidmətinin qüvvələri cəlb olunub. Yanğınsöndürənlərin çevik müdaxiləsi sayəsində yanğının genişlənməsinə imkan verilməyərək qısa müddətdə söndürülüb. Hazırda cinayət işi üzrə müvafiq ekspertizalar təyin olunmaqla zəruri istintaq tədbirləri davam etdirilir.***



SİA baş vermiş partlayışla bağlı şəhər sakinləri arasında sorğu keçirib.

**Şəhər sakini Natiq Abdullayev:** "Ümumiyyətlə, insanlar qanunla yaşadığı müddətcə ölkə də inkişaf edir. Elə fəaliyyətlər var ki, yaxşı nəticələnmir və bununla da cəmiyyət zərər çəkir. Bu cür obyektlərdə də elə bir şərait yaradılır ki, bu hallara imkan yaranır. Xüsusilə də bu hadisənin müqəddəs aya təsadüf etməsi bəlkə də bizim üçün bir işarədir".







**Şəhər sakini Firuzə Razikova:** "Baş verən hadisədən xəbərdaram. Doğrusu, mən Avropada yaşamış biri olaraq gecə klublarının fəaliyyətinə pis baxmıram. Lakin oruclıq ayında belə obyektlərin işləməyi düzgün deyil, biz müsəlman millətik".




**Şəhər sakini Maarif Soltanov:** "Hadisəni təfərrüatları ilə bilmirəm. Amma əgər müəyyən təhlükəsizlik nəzərə alınsa idi, belə bir hadisə baş verməyə də bilərdi. İndi elə bir yaşdayam ki, gənclərin gecənin bir yarısı belə obyektlərdə vaxt keçirməyinə yaxşı baxa bilmirəm".

**Şəhər sakini Nərgiz Daşdəmirova:** "Partlayış nəticəsində yaralanan cavanlar var. Vəzifəsindən, kimliyindən asılı olmayaraq hər biri xalqımızın nümayəndəsidir. Amma mən belə obyektlərin fəaliyyətinə qarşıyam. Heç birinə etibar etmək olmur. Bir səhlənkarlıq nəticəsində bu qədər insanın həyatı təhlükə altına düşüb".




**Şəhər sakini Rövşən Babayev:** "İlk öncə, Allah xəsarət alananlara kömək olsun. Düşünürəm ki, hadisənin Ramazan ayında baş verməyi bir şey ifadə etmir. Hər kəsin bir inancı, həyat tərzi, bir dünyagörüşü var. Bu hadisəni nə dinə, nə də başqa bir şeyə bağlamaq olar. Sadəcə insanın təhlükəsizliyini qorumaq üçün daha diqqətli olmaq lazımdır. Çünki bundan hər kəs zərər çəkir".




**Şəhər sakini Elnarə Nağıyeva:** "Təbii ki, bu hadisənin baş verməsi xalqımız üçün xoş olmayan bir şeydir. Kaş ki, yaşanmazdı, amma bu da bir dərs olsun. Bir səhv nəticəsində həm hadisə yerində olan, həm də ziyan dəymiş obyektlərin sahibi olan insanlar zərər çəkib.




**Şəhər sakini Rasim Hüseynov:** "Ümumilikdə belə obyektlərin fəaliyyəti müsəlmançılığa zidd olan bir şeydir. Belə halların qarşısı alınsa çox gözəl olar. Başqa şeyləri bacarmırıqsa da, öz dürüstlüyümüzü, sağlamlığımızı qorumağı bacarmalıyıq".

SORĞU

***Ləman Əlizadə***

## Şuşa zəfərimizin tacıdır!

"Şuşa bizim zəfərimizin tacıdır. Eyni zamanda tariximizin, mədəniyyətimizin, ümumilikdə milli kimliyimizin əsas simvollarından biridir". Bu sözləri SİA-ya açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov deyib. Onun sözlərinə görə, bu ilin "Şuşa ili" elan edilməsi bunöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir: "Ölkəmizdə bununla bağlı olaraq il boyu müxtəlif tədbirlər keçiriləcək. Mən düşünürəmki, bu ilin "Şuşa ili" elan edilməsi gənclərimizə və məktəblilərimizə çox faydalı olacaq, onların vətənpərvər ruhda yetişməsi və tərbiyəsinə böyük töhfə verəcəkdir.




Cənab prezident tərəfindən bu ilin "Şuşa ili" elan edilməsi həmdə ölkə xaricində Azərbaycanın təbliği baxımından son dərəcə mühüm hadisədir. Bu sayədə Azərbaycan mədəniyyəti daha geniş təbliğ olunacaq, qloballaşan dünyada Azərbaycanın özünəməxsus dəyərlərinin tanıdılması işinə böyük təkan verəcəkdir".

***Səbinə Hüseynli***

## "Ermənistanın sərgilədiyi mövqe yalnız onun vaxt qazanmasına hesablanıb"

"Azərbaycan tərəfi hər zaman yekun sülh sazişinin bağlanması üçün Ermənistana təklif edib. Təbii ki, yekun sülh sazişinin bağlanması üçün vacib şərtlər təmin olunmalıdır. Yəni Azərbaycanın irəli sürdüyü təkliflər də özündə bu şərtləri ehtiva edir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib.

Onun sözlərinə görə, bu şərtlər dəfələrlə təkrar edilib: "Azərbaycan artıq 2020-ci ildən sonra dəfələrlə bu şərtləri Ermənistan tərəfinə bildirib. Azərbaycan ilə Ermənistan sərhədlərin dəqiqləşdirilməsi üçün sərhədlərin delimistasiya və demarkasiyasının aparılması tələb olunur. Dövlət sərhədlərini müəyyənləşdirmədən hər hansı bir yekun sülh sazişini imzalamaq qeyri-mümkündür".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, 2021-ci il 14 dekabr tarixində Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüsseldə keçirilən görüş zamanı da məhz bu məsələ ətrafında ciddi müzakirə aparıldı: "Müzakirə zamanı Ermənistan tərəfi də sərhədlərin delimitasiyası və demarkasiyasının aparılması üçün işçi qrupunun yaradılmasına razılığını bildirdi. Amma ötən dövrdə ərzində Ermənistan tərəfindən bu istiqamətdə hər hansı bir addım atılmadı. Digər bir şərt ondan ibarətdir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməlidir. Sülhün əsasını təşkil edən ən vacib amillərdən birini də məhz bu təşkil edir. Ermənistan bundan sonra da Azərbaycan qarşı ərazi iddiaları irəli sürəcəksə, təbii ki, Azərbaycan ilə Ermənistan arasında hər hansı bir sülhdən danışmağa əsas ola bilməz.



Nəzərə almaq lazımdır ki, 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatda öz ifadəsini tapan şərtlər də elə yekun sülh sazişinin imzalanması üçün vacib əsasları təşkil edirdi. Lakin 10 noyabr 2020-ci il tarixli birgə bəyanatın şərtlərinə əməl olunması istiqamətində də Ermənistandan hər hansı bir addımı görmədik. Ermənistanın bu günə kimi sərgilədiyi mövqe yanlız onun vaxt qazanmasına hesablanıb. Ermənistan məğlub vəziyyətinin qismən də olsa yüngüllüşəcəyinə ümid edir. Bu günə kimi dəfələrlə bu istiqamətdə cəhdlər etdi. Amma heç bir nəticə əldə edə bilmədi. Hesab edirəm ki, Ermənistan tərəfi artıq bu ağır məğlub vəziyyətinin dəyişməsi istiqamətində etdiyi cəhdlərin bir nəticə vermədiyi və bundan sonra da verməyəcəyi ilə barışmaqdadır.

Aprel ayının 6-da tərəflər arasında Brüsseldə görüş gözlənilir. Düşünürəm ki, bu görüş növbəti mərhələdə daha aydın mövqelərin sərgilənməsi üçün bir platforma rolunda çıxış edə bilər. Hələ ki, yekun sülh sazişinin imzalanması üçün əsas yoxdur. Ermənistan yekun sülh sazişinin imzalanması üçün tələb olunan şərtlər barəsində heç bir addım atmayıb".

***Arzu Qurbanzadə***

## Ramazan dualar və ibadətlər ayıdır

"Ramazan ayı dualar və ibadət ayıdır. Bu ayda insanların oruc tutması, namaz qılması və çoxlu ibadətlər edərək Quran oxuması çox gözəl olar". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev bildirib.

Onun sözlərinə görə, əxlaqi zənginlik üçün bu ayda insanlar nə qədər diqqətli olsalar, bir o qədər savab qazanarlar: "Qaldı ki musiqi dinləmək, film izləmək kimi məsələlər təbii ki, olar. Çünki bu həyatda yaşayırıqsa, təbii ki, gündəlik həyatımızda musiqi də eşidəcəyik, filmləri də izləyəcəyik. İnsana musiqi əxlaqi qida və əxlaqi keyfiyyətlər bəxş edir. Buna görə də musiqi dinləməyin heç bir günahı yoxdur. Məsələn, muğam dinləyən zaman oradakı qəzəllər insanlara vətənpərvərlik və sevgi aşılayacaqdır. Amma mümkündürsə, Ramazan ayında toy etmək, musiqi dinləmək və yaxud bu kimi bir çox əyləncələri digər aylara təxirə salmaq daha yaxşı olar. Çünki bu ay dualar və ibadətlər ayıdır. Ramazanda insanlar dua etməli, Namaz qılmalı və oruc tutmalıdırlar. Eyni zamanda Quran oxumaq da görülən ən işlərdən biri olacaqdır. Eyni zamanda Ramazan ayında müharibələr, dava-dalaşlar da olmamalıdır.

Ramazan ayında mənəviyyat, əxlaq üçün nə etmək olarsa, onları yaradandan qazanıb almalıyıq. İldə bir dəfə bəxş edilən Ramazan ayının dəyərini bilmək lazımdır. İftar süfrələri açmaq, xəstələrə baş çəkmək və yoxsullara əl tutmaq da bu ayın şərtlərindəndir. Eyni zamanda əgər bir qızın hərisini almaq istəyirlərsə, bunu iftar süfrəsində edə, "Allah mübarək etsin" sözləri ilə qızın xeyir-duasını verə bilərlər. Bu ayda Allah deyir ki, "Mən qapılarımı açmışam. Bəndələrim gəlib o rəhmət qapısından daxil olsunlar".

Ramazan fürsət ayıdır. Bacardığımız qədər bu aydan istifadə etmək lazımdır. Bir çox məişət və həyatımızla bağlı olan işləri mümkündürsə, digər aylara təxirə salmaq lazımdır. Allah dualarımızı, tutduğumuz orucları qəbul etsin!".

***Səbinə Hüseynli***

ANALİTİK + AKTUAL

# ERMƏNİSTANDA "bir addım sağa, bir addım sola güllələnmədir" ab-havası




**Gözlənilən Brüssel görüşü ilə bağlı Ermənistanın siyasi-ictimai rəyinin, habelə, mətbuatının nə barədə yazdıqları maraqdoğurucudur. Daha dəqiq desək, bu gün Rusiya-Qərb qarşıdurmasında iki qütbə parçalanmış ermənilərin bir tərəfdən Qərbdən, digər tərəfdən isə Rusiyada ala biləcəkləri zərbələrdən nə qədər ehtiyat etmələri göz önündədir.**

SİA xəbər verir ki, bununla bağlı Ermənistanın Armenianreport analitik saytı məqalə ilə çıxış edib və "bir addım, sağa və sola güllələnmədir" prinsipinin mövcudluğunu yazıb. Beləliklə, həmin məqalədəki bəzi diqqətçəkici məqamları qeyd etmək yerinə düşərdi. SİTAT: "Bir addım sağa, bir addım sola güllələnmədir. Bizim ölkəni tamhüquqlu müttəfiq kimi deyil, quberniya kimi görən Rusiya Ermənistana münasibətdə uzun illərdir ki, məhz bu cür siyasət yürüdür. Özü də mütləq deyil ki, Moskva müvafiq siyasəti birbaşa aparsın, məsələn qəzəbli çağırışlar, ya da birbaşa telefon danışıqları ilə. Xeyr, bunun üçün onun Ermənistanda çoxsaylı quyruqbulayanları və nökərləri var ki, onlar özlərinin Kreml kuratorları tərəfindən verilən istənilən əmri icra etməyə hazırdırlar".



**Armenianreport: "Paşinyan iki od arasında qalıb: "Qərb tərəfindən məyusluq", ya da Moskva tərəfindən "sanksiyalar"**

## Kreml Brüssel görüşü ərəfəsində Koçaryan-Sarqsyan-Daşnaksutyun üçlüyünə "fas" komandası verib?



Armenianreport buna misal olaraq İrəvanın Azadlıq meydanında aprelin 5-nə təyin edilmiş mitinqi göstərir. "Ermənistan və "Artsax" uğrunda" adlı sərsəm şüarla keçirilməsi planlaşdırılan mitinqi isə məhz eks-prezident Robert Koçaryanın sahibi olduğu "Ermənistan" parlament fraksiyası, eləcə də digər eks-prezident Serj Sarqsyanın sahibi olduğu "Şərəfim var" parlament fraksiyası tərəfindən təşkil edildiyi bildirilir. Adıçəkilən erməni media orqanı parlamentin müxalifətçi "Daşnaksutyun" partiyasının vitse-spikeri İşxan Saqatelyanın fikirlərini də əlavə edib.

"Bu hakimiyyət bizim ölkənin təhlükəsizliyini təşkil etmək vəziyyətində deyil. Biz qərara gəldik ki, "Artsaxın" və Ermənistan respublikasının müdafiəsi üçün müzakirələr aparaq və bunun üçün lazımlı addımlarımızı ataq", deyə daşnakların nümayəndəsi bildirib.

Bu əsasdan çıxış edən erməni saytı iddia edir ki, məhz Brüssel görüşü ərəfəsində Rusiya öz adamlarına aprelin 5-də hakimiyyət əleyhinə yönəlmiş mitinq keçirməyi tapşırıb.



SİTAT: "Məsələ ondadır ki, aprelin 6-da Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin keçirəcəkləri görüş bir çoxları üçün gözlənilməz oldu. Artıq Paşinyan Azərbaycan Prezidenti ilə sülh danışıqlarının başladılması üçün razılaşmalar aparmaq niyyətində olduğu barədə bəyanat da səsləndirib. Yəni a Qərbin Bakı ilə İrəvan arasındakı barışıq təşəbbüsünü ələ keçirməsi mümkünlüyü Moskvanı və onun əlaltılarını qorxudub".

## Birinci Brüssel görüşü Kremli niyə qıcıqlandırmışdı?

Həmçinin qeyd olunur ki, məlum olduğu kimi, ATƏT-in Minsk qrupunun faktiki ölümündən sonra məhz Moskva bütün təşəbbüsləri öz əlində cəmləşdirdiyini sanır, həmçinin hər



iki tərəfə təsir etmək rıçaqlarını qazanır. Lakin birdən-birə Avropa Şurası ortaya çıxır və yenidən, artıq ikinci dəfə Əliyevlə Paşinyanı Brüsseldə substantiv danışıqlar aparmağa dəvət edir. SİTAT: "Birinci danışıqlar ötən ilin dekabrında keçirilmişdi və bu, Moskvanın elə də xoşuna gəlməmişdi..."

Bundan sonra Putinin Ermənistandakı beşinci kolonuna, yəni sabiq prezidentlərin komandalarına "fas" əmrini verdiyi bildirilir və Paşinyana təzyiq etmək üçün Brüssel görüşü öncəsində ölkədə neqativ situasiyaların yaradılmasına çalışdığı bildirilir, həmçinin son günlərdə mövzu ilə bağlı iki dəfə Paşinyanla telefon danışığı keçirdiyi xatırlanır.

"Görünür, o (Putin) ümumiyyətlə görüşə getməməyi tələb edib, ya da Moskva ilə razılaşdırılmamış hər hansı sənədə imza atılmamasını tələb edib", deyə yazan erməni saytının



əlavə etdiyinə görə, bu kontekstdə Paşinyan bir neçə həftə əvvəl bəyan etmişdi ki, aprelin 9-da Moskvaya rəsmi səfərə gedəcək, lakin həmin görüş məlum olmayan səbəblərə görə təxirə salındı.

## Paşinyanın aprelin 9-na planlaşdırdığı rəsmi Rusiya səfəri niyə təxirə salındı?

Daha bir ilginc erməni iddiasına diqqət yetirək. SİTAT: "Məlumdur ki, əgər Paşinyan Moskvaya getsəydi, onda Putin orada Paşinyandan Əliyev-Ərdoğan tandeminə müəyyən güzəştlərin edilməsini tələb kimi ortaya qoyacaqdı. Lakin bu məsələ Kreml və Rusiya xüsusi orqanları tərəfindən qidalandırılan müxalifəti bir az da olsa narahat etmədi..."

"Əlbəttə, Paşinyan Moskvanın eyhamlarını və narahatlıqlarını anlayıb. Və əvvəldən də bildirib ki, o Azərbaycan Prezidenti ilə sülh danışıqlarının başladılması üçün razılaşmalara gedəcəyi qərarındadır. Buna baxmayaraq, baş nazir ağır situasiyaya düşüb", yazan Armenianreport əlavə edir ki, əgər Paşinyan Brüsseldə Moskvaya görə qərarını dəyişsə bu zaman Qərbi məyus edəcək, belə ki, son vaxtlar Qərb də Ermənistan dövləti ilə soyuq münasibətlər nümayiş etdirir. Buna misal kimi, ABŞ-ın Ermənistana ayırdığı maliyyə yardımı həcmini azaldılması, Qarabağ separatçılarına isə, ümumiyyətlə, maliyyənin ayrılmaması göstərilir. SİTAT: "Əgər Qərb Əliyevlə Paşinyan arasında mühüm sənədlərin imzalanmasına nail olacaqsa, onda Moskvanın sanksiyaları özünü çox gözlətməyəcək. Və biz Rusiyanın İrəvandan necə narazı qalmasının nəticələrindən xəbərdarıq..."



Erməni saytı əks halda Qarabağda gərginliyin artması, hərbçilərinin öldürülməsi, "Artsax ərazilərinin itirilməsi" məsələsini proqnozlaşdırır və sonda sual edir - bəs Paşinyan Brüsseldə nəyi seçəcək?

Yəqin ki, elə bu sualı verən Armenianreort onu yalnız Paşinyana deyil, elə bütünlükdə özünə və erməni ictimaiyyətinə ünvanlamalıdır. Çünki erməni xalqının özü öz gələcəyini, müqəddəratını həll etməlidir - güclü Azərbaycan isə əlbəttə ki, hələ tükənməyə başlayan səbrini basaraq gözləyir və bunu çox yəqin ki, Armenianreport saytının analitikləri də yaxşı bilirlər. Ona görə də öz suallarına cavabı da özləri tapmalıdırlar...

***Rövşən RƏSULOV***

***P.S. Yəqin ki, elə bu sualı verən Armenianreort onu yalnız Paşinyana deyil, elə bütünlükdə özünə və erməni ictimaiyyətinə ünvanlamalıdır. Çünki erməni xalqının özü öz gələcəyini, müqəddəratını həll etməlidir - güclü Azərbaycan isə əlbəttə ki, hələ tükənməyə başlayan səbrini basaraq gözləyir və bunu çox yəqin ki, Armenianreport saytının analitikləri də yaxşı bilirlər. Ona görə də öz suallarına cavabı da özləri tapmalıdırlar... Ola bilər ki, onlar bəzi şəhərlərin əhalisini evakuasiya etməyə çalışacaqlar, lakin bunun mümkün olub-olmayacağı, evakuasiyanın harada aparılacağı barədə heç kim əvvəlcədən məlumat verə bilməz ki, bu da xaosun açılmaz olduğunu göstərir.***

## "Azərbaycan dövləti Prezidentin liderliyi ilə şərəfli bir dövrünü yaşayır"

"Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz davamlı olaraq inkişaf edir, güclənir, regionda güc mərkəzinə çevrilir. Qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması isə regionda yeni vəziyyət yaradır. Bu amil Azərbaycanın beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, ümummilli lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır". SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, aprelin 11-də ölkəmizdə keçirilən son prezident seçkilərindən dörd il ötür. Bu seçkilərdə cənab İlham Əliyev seçicilərin mütləq əksəriyyinin etimadını, 86.02 faiz səs toplayaraq parlaq qələbə qazandı. Əlbəttə ki, Prezidentimizin bu qələbəsinin mühüm əsasları var. Qeyd etdiyimiz kimi, dövlət başçısının siyasəti nəticəsində ölkəmiz bütün sahələrdə inkişaf edərək möhtəşəm uğurlara imza atıb.

Millət vəkilinin sözlərinə görə, 2003-2018-ci illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət və nəticəyə hesablanmış diplomatik uğurlar Azərbaycanın BMT, Avropa Şurası, ATƏT, NATO və bütün digər nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunasından daha qətiyyətlə çıxış etməsi və bir çox mə-



sələlərdə beynəlxalq aləmin onun rəyinə hörmətlə yanaşması üçün münbit şərait yaradıb. Azərbaycan neçə illərdir ki, Qoşulmama Hərəkatına uğurla sədrlik edir və bu beynəlxalq platforma çərçivəsində Prezidentimiz İlham Əliyevin bir sıra qlobal təşəbbüsləri beynəlxalq müstəvidə böyük dəstək qazanıb.

S.Fətəliyeva qeyd edib ki, Prezident İlham Əliyevin milli maraqlara əsaslanan xarici siyasət kursu Azərbaycanın beynəlxalq münasibətlər sistemində nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Ötən dövrün mənzərəsini əks etdirən reallıqlar və hazırkı geosiyasi situasiya da onu göstərir ki, dünyanın nəzəri Azərbaycanda və regiondadır. Çünki Azərbaycanın yaratdığı geostrateji reallıqlar beynəlxalq ictimaiyyətin xüsusi diqqət mərkəzindədir. Bu isə Prezident İlham Əliyevin regionun yeni geosiyasi mənzərəsini müəyyən etdiyini göstərir. Son zamanlar Avrasiyanın ən önəmli strateji məntəqələrindən olan Xəzər-Qara dəniz geosiyasi hövzəsində qaynar proseslər və intensiv diplomatik trafikin fonunda Azərbaycanın barışdırıcı missiyası və fəal rolu diqqəti cəlb edir. Xüsusilə də, Ukrayna hadisələri fonunda Cənubi Qafqazın lider dövləti olan Azərbaycan konstruktiv strateji diplomatiyası ilə fərqlənir, çox mühüm təşəbbüslər və ideyalarla çıxış edir. Bu səpkidə bir neçə məqam xüsusilə diqqəti cəlb edir. Prezident İlham Əliyevin siyasəti Azərbaycanın etibarlı - güvənli tərəfdaş, inam və etimad ünvanı olduğunu təsdiqləyir. Dövlət başçısı hər zaman vurğulayır ki, Azərbaycan toqquşma deyil, əməkdaşlıq məkanıdır. Azərbaycan Prezidentinin praqmatik strateji kursu müxtəlif geosiyasi qütblər - Rusiya, Amerika Birləşmiş Ştatları və digər güc mərkəzləri eləcə də Aİ, NATO, İƏT və başqa strateji birliklər tərəfindən müsbət dəyərləndirilir. Bu düşünülmüş siyasət ölkəmizin regionda və beynəlxaql müstəvidə siyasi çəkisini əhəmiyyətli dərəcədə artırır".

"44 günlük Vətən müharibənin əsas qəhrəmanı da Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Bəzi xarici ölkələr, təşkilatlar, siyasi dairələr iddia edirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Lakin Prezident İlham Əliyev "Dəmir yumruq" əməliyyatı ilə sübut etdi ki, münaqişənin hərbi həlli var. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə mövqeləri güclənib və bundan sonrakı mərhələdə bu mövqe daha da möhkəmlənəcək. Əminik ki, qarşıdakı dövrdə də Prezident İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan bütün sahələrdə daha möhtəşəm, əzəmətli nailiyyətlər qazanacaq. Artıq ölkəmiz regionda yeni reallıqlar yaradıb və bu reallıqların praktiki mərhələyə keçməsi üçün əməli addımlar atır. Yeni reallıqlar isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daha böyük, möhtəşəm nailiyyətlər əldə etməsinə hədəflənib", - deyə Sevinc Fətəliyeva söyləyib.

yap.org.az

# Gecə klubu, ya şər yuvası

**Həmişə yeraltı və yerüstü sərvətləri ilə məşhur olan Bakı indi də turizm mərkəzinə çevrilir ki, bu da zövqlə səyahət və ya istirahət etmək istəyən turistləri cəlb edə bilər. Uzun tarixə, mənzərəli yerlərə, müxtəlif mədəniyyətlərin qarışığına və bütün il boyu xoş iqlimə malik Azərbaycanın paytaxtı günün hər saatında çoxlu sayda müxtəlif təcrübələr yaşayır. Gündüzlər şəhər öz mədəni simasını nümayiş etdirir. Ölkəmiz ənənəvi dəyərləri və bənzərsiz qonaqpərvərliyi ilə seçilir.**

Bakı təkcə Azərbaycanın paytaxtı deyil, həm də ölkənin gecə həyatının mərkəzidir. Bakının gecə həyatının mərkəzi Nizami küçə-



si ətrafında, İçərişəhər adlanan ərazidir. Buradan gecə həyatına asanlıqla çata bilərsiniz.

Bakıda çoxlu diskoteka və gecə klubları var. Gecə klubları insanların əylənmək, musiqi sədaları altında rəqs etdikləri, spirtli içkilər qəbul etdikləri və ümumiyyətlə, səhərə qədər oyaq qaldıqları yerlərdir.



Gecə klublarının ən böyük problemlərindən biri yaşı 18-dən aşağı olanların məkana buraxılma-



masıdır. Lakin gənclər hiyləgər və ağıllıdırlar. Saxta vəsiqə göstərmək kimi müxtəlif üsullara əl atırlar. Belə hallarda qızların işi oğlanlara nisbətdə daha rahatdır.

Qızlar ağır makiyaj, gözəl saçlar, gecə geyimi və dikdaban ayaqqabılarla istədikləri yaşda görünə bilərlər. Kişilər üçün isə bu məsələ çətindir.

Bəs, gecə klubları cəmiyyətimizə necə zərbə vurur? Bu kimi yerlərin hansı mənfi və müsbət tərəfləri var? Fəaliyyəti nə dərəcədə düzgündür? İnsanların hamısı bura sırf əylənmək üçün gəlir? SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert, din xadimi, psixoloq və hüquqşünasların fikirlərini öyrənib.

**Din xadimi Mircəfər Əyyubov:** ”Cəmiyyətdə belə obyektlərin, bu cür əyləncələrin qəbahətinin gözardı edilməsi, islama, ciddi həyat tərzinə zidd olan kef məclislərinin təbii qəbul edilməsi insanlığın məhvinə gətirib çıxarır. Gecə klublarının cəmiyyətimizə vurduğu



zərbə, gənclərin məsuliyyətsizləşməsi, insanın faydalı şəxsiyyət olmaqdan çıxıb atılıb-düşən varlığa çevrilməsi çox ağrılı bir haldır. Allah insanı canişini olaraq yaradıb.

Avropada olan hər şeyin gözəl və müasir olduğunu düşünüb gözüyumulu onları etmək səfehlikdir. Bu kimi obyektlərin heç bir müsbət təsiri yoxdur. Bir yerin statusu içki mərkəzi deməkdir, o yerdən müsbət bir şey gözləmək mümkün deyil. Sanki insanlar yığışıb dəlilik etməyi sevirlər. Bəzi insanlar açdığımız mərkəzə istəyən gəlsin, istəməyən gəlməsin deyirlər. Bu, tamamilə, şeytanın qiyamət günü dediyi sözlərdir. Gənc bir oğlan və ya qızın içindəki şəhvəti, ehtirası qayda-qanunsuz ortaya çıxmasına imkan yaradan, sonra istəməyən gəlməsin demək doğru deyil. Ümid edirəm ki, həm o cür obyektləri açanlar, həm gənclər, həm də onların valideynləri bu hadisədən ibrət götürəcəklər”.

**Hüquqşünas Fariz Əkbərov:** ”Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Uşaqları qorumaq və onların hüquqlarını müdafiə etmək hər birimizin borcudur.

Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə əsasən, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət



edir. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

18 yaşına çatmayan işçilərin digər başlıca hüquqları aşağıdakı kimidir:

-16 yaşınadək işçilər üçün həftəlik 24 saat, 16 yaşdan 18 yaşınadək işçilər üçün isə 36 saatdan çox olmayaraq iş saatı tətbiq edilməlidir.

- Bu iş saatlarını nəzərə almaqla 18 yaşına çatmayan işçilər həm əsas, həm də əlavə iş yerlərində çalışa bilər və bu iş yerlərində iş saatının cəmi yuxarıda göstərilən müddətləri ötməməlidir.

- Yaşı 16-dan az olan işçilərə 1 iş ili üzrə 42, 16 yaşdan 18 yaşınadək işçilərə isə 35 təqvim günündən az olmayaraq məzuniyyət verilməlidir.

Qeyd etmək istəyirəm ki, uşaq hüquqlarının pozulması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada inzibati və cinayət məsuliyyətinə səbəb olur”.

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** ”Bütün dünyada gecə klubları gənclərin istirahət etdiyi məkan sayılır. İnsanların bu tipli mərkəzlərdə istirahət etməsinə normal yanaşmaq lazımdır.

Biz hələ bilmirik ki, bu hadisə dini radikal qruplar tərəfindən törədilib, ya necə? Əgər bu, terror hadisəsidirsə, bu əməli törədənləri şiddətlə qınayırıq. Cəmiyyətin hər bir qrupunun istirahət etmək, yaşamaq, ibadət etmək haqqı var. Bu haqqı da digər qruplar qəbul etməlidirlər.

Biz uzun müddət Bakıda gecə klubları olmadığını qınayırdıq. Çünki gənclərimiz pullarını digər ölkələrə tökürdülər. Bu baxımdan da, Azərbaycanda da belə mərkəzlərin olmasına normal baxılmalıdır. Kim də buna qarşıdırsa, deməli, Azərbaycan insanının haqq və hüquqlarına qarşıdır. Əlbəttə, əndazəni keçməmək şərti ilə bu cür klubların fəaliyyəti, həm də kreativ bizneslərin inkişafı, yeni iş yerlərinin yaranması deməkdir.

Artıq dünya qəbul edir ki, keçmişdə olduğu kimi post-sənaye



dövrünü yaşayırıq və bu dövrdə də zavodlar, fabriklərdən çox, məhz əyləncə mərkəzləri, xidmət sektoru, orta və kiçik biznes sahələri yaranmalıdır. Dünyanın hər yerində bu sahələrdə milyonlarla iş yeri var.

Çox təəssüflər olsun ki, bu tipli hadisələr baş verən zaman cəmiyyətimizdə kobudluq görürük. Hansısa qız rəqs edirsə deyirlər ki, bu rəqsə görə ora partlayıb və s. Bu faciə qurbanlarına qarşı hörmətsizlikdir.

Bu millətin özünəməxsus mental dəyərləri var. Dəyərlərdən biri də Ramazan ayında toy etməməkdir. Ramazan ayında dində elə bir söhbət yoxdur ki, nə isə qadağan edilsin. Hətta iftardan sonra toya da icazə verilir. Şənlənmək olmaz deyə bir şey yoxdur. Amma müəyyən incəliklər var ki, onları qorusaq daha yaxşı olar”.

**Psixoloq Vüsalə Əmiraslanova:** ”Hadisəyə mənfi cəhətdən yanaşmaq düzgün deyil. İnsanların əksəriyyəti dünən gecə klubunda əylənənlərə qarğış edərək onlara lənət oxuyur.

Gecə klublarının cəmiyyətimizə zərərindən danışarkən onu qeyd etməliyik ki, meyli olan insan zatən



zərərli vərdişlərdən istifadə edir. Bu, o demək deyil ki, hamı buraya getməlidir. Hər kəsin öz şəxsi seçimidir.

Lakin yeniyetmə və azyaşlıların orada olması yolverilməzdir. Yeniyetməlik dönəmini keçən bir şəxs isə nəyin səhv, nəyin yanlış olduğunu bilir”.

***Ayşən Vəli***

ARAŞDIRMA

# “Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsinin böyük siyasi əhəmiyyəti var”

**İki ilə yaxındır ki, torpaqlarımızın özünün əzəli və əbədi sahibinə qovuşmasının, ərazi bütövlüyümüzün təmin edilməsinin sevincini yaşamaqla yanaşı, tarixi Zəfərimizin yaratdığı reallıqların dünya ictimaiyyəti tərəfindən təsdiqi və qəbulu istiqamətində biri-birindən əhəmiyyətli addımlar atılır. Bu gün dünya gücləri postmünaqişə dövrünün reallıqlarının həyata keçirilməsi ilə bağlı dəstəklərini göstərməyə hazır olduqlarını bildirir, onların təşəbbüsü ilə Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin görüşləri təşkil edilir, 10 noyabr 2020-ci il Bəyanatında əksini tapan müddəaların yerinə yetirilməsinin vacibliyi vurğulanır. 2021-ci ilin Moskva, Soçi və Brüssel görüşləri deyilənlərin təsdiqidir. O da məlumdur ki, bugünlərdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin görüşü keçiriləcək.**

Göründüyü kimi, atılan hər bir addım sülh təklifinin reallığa çevrilməsinə, regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasına, ən əsası 30 il göz yumulan həqiqətlərin hamı tərəfindən qəbuluna xidmət edir. Azərbaycan dövlətinin qətiyyəti, ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi, həmrəyliyi sayəsində 44 gündə imza atdığımız tarixi Zəfər bundan sonrakı hədəflərimizə işıq salaraq, Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın inkişafı naminə mühüm tədbirlərin görülməsinə, bu torpaqların malik olduğu potensial imkanlardan səmərəli istifadəyə çağırışlar edir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tarixi Zəfərimizdən dərhal sonra işğaldan azad edilmiş ərazilərimizə səfərləri, 2021-ci ildə gerçəkləşdirdikləri 32 səfər də bir çox məqamların təqdimatında əhəmiyyətli rol oynayır. Bu səfərlərin 7-si Qarabağın tacı, Azərbaycanın döyünən ürəyi, musiqi beşiyimiz Şuşa şəhərinə edilib. Tarixi Zəfərimizdən sonra ilk Novruz tonqalı da məhz Şuşada, Cıdır düzündə alovlandırıldı. Bu reallıqlar işğalçı Ermənistanı və ona havadarlıq edən dövlətləri 30 ildə bilərəkdən, maraqlarına uyğun olaraq qəbul etmədikləri həqiqətlərə ədalət gözü ilə baxmağa məcbur etdi. 28 ildə Şuşanı erməniləşdirməyə çalışan mənfur düşmən bunun mümkünsüzlüyünün şahidinə çevrildi”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.



Vüqar Rəhimzadə qeyd edib ki, Şuşa əməliyyatı artıq bir dastana çevrilib. Dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində Şuşa əməliyyatı haqqında müzakirələr, təhlillər aparılır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bir çoxları, xüsusilə bu tarixi şəhərin öz sahiblərinə qovuşmasından sonra Şuşada olmuş insanlar inana bilmirlər ki, Azərbaycanın qəhrəman övladları yüngül silahlarla qayalara dırmaşaraq bizim mədəniyyət paytaxtımız, Qarabağın tacı Şuşanı işğalçılardan azad ediblər.

”Şuşanın gələcəkdə daha füsunkar olacağına əminlik üçün son ilyarımda burada aparılan bərpa və quruculuq işlərinin miqyasına diqqət yetirmək kifayətdir” söyləyən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, artıq mədəniyyət beşiyimizin əvvəlki şöhrəti özünə qaytarılır: ”Öncə dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Sənəddə də qeyd olunduğu kimi, Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub. 1977-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə ”Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilib. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Artıq işğaldan azad olunmuş ərazilərimizin, o cümlədən Şuşamızın işğal tarixini deyil, sahibinə qovuşduğu günləri qeyd edərək hər daşı, qayası tarix olan bu torpaqlarımızın bərpasının tezliklə başa çatdırılması, soydaşlarımızın Böyük Qayıdışının reallığa çevrilməsi istiqamətində davamlı addımlar atılır. Dövlət başçısı İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa şəhərinə təyin edildi. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaq.”

Vüqar Rəhimzadə qeyd edib ki, ötən ilin mayında ”Xarıbülbül” musiqi festivalının, avqust ayında isə Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsi bərpa edildi: ”Şuşa iki dost, qardaş ölkənin- Azərbaycan və Türkiyənin müttəfiqliyini təsdiqləyən Bəyannamənin imzalanmasına şahidlik etdi. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Şuşa şəhəri diplomatik mərkəz rolunda çıxış edir. Belə ki, Azərbaycan ilə BMT arasındakı münasibətlərin 30 illiyi, BMT-Azərbaycan tərəfdaşlığı martın 18-də ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərində qeyd edildi. Bunun böyük siyasi, diplomatik, eyni zamanda, rəmzi mənası var. Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT-nin postmünaqişə dövrünün reallıqlarını qəbul edərək, belə bir tədbirin Qarabağın tacı Şuşada keçirilməsində maraqlı olması həmin qurumun Təhlükəsizlik Şurasının bu gün tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnaməsinin reallıqlara söykəndiyini bir daha təsdiq etməklə Ermənistanın reallıqlarla barışıb sülh müqaviləsini imzalamasına bir çağırışdır.”

YAP Xətai rayon təşkilatının sədri bu mühüm tədbirin ardınca martın 31-də Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsinin də böyük siyasi və mənəvi əhəmiyyəti olduğunu bildirib: ”Bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunub. Dövlət başçısı İlham Əliyevin həqiqət anı kimi dəyərləndirdiyi 44 günlük İkinci Qarabağ müharibəsi həqiqətlərin təbliği və təqdimatı oldu. Ölkə Prezidentinin çağırışlarının əsasında bu mühüm məqam daim xüsusi yer alır ki, birliyimizdən çox şey asılıdır. Hər zaman Türk dünyasının birliyinə, həmrəyliyinə səy göstərən Azərbaycanın bu ümdə vəzifənin reallaşmasına töhfələri göz önündədir və təqdir edilir. Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi də bu birliyin, həmrəyliyin təcəssümü, eyni zamanda, işğalçı Ermənistana, ona 30 ildən yaxın dövrdə və hazırkı postmünaqişə mərhələsində havadarlıq edən dövlətlərə ciddi mesajdır. Bir daha sübut olundu Şuşa nəinki Azərbaycanın, bütün Türk dünyasının mədəniyyət paytaxtıdır”.

## Rusun ”güvəndiyi dağlara da qar yağır”..?

### Almaniyada Rusiyaya qarşı yeni sanksiyaların mahiyyəti açıqlanıb

**Rusiyaya qarşı yeni, beşinci sanksiyalar paketi həm şəxsi tədbirləri, həm də ölkənin maliyyə bazarına qarşı məhdudiyyətləri əhatə edəbilər. SİA-nın məlumatına görə, bu barədə ”ZDF” telekanalında almanıyalı vitse-kansler, iqtisadi məsələlər və iqlimin mühafizəsi naziri Robert Habek bildirib.**

Onun sözlərinə görə, sanksiyalar gələn həftə qəbul olunacaq. Yeri gəlmişkən, Habek sanksiyaların bütün spektri - ”şəxsi məhsullardan tutmuş texnoloji məhsullara qədər” hər şeyi əhatə edəcəyini də bildirib. ”...Biz diqqətimizi bir daha maliyyə bazarına yönəldəcəyik”, - deyə almaniyalı dövlət rəsmisi vurğulayıb.



Habekin sözlərinə görə, Almaniya Rusiyanın enerji idxalından asılılığını azaltmaq istiqamətində də artıq əhəmiyyətli irəliləyiş əldə edib. Belə ki, dövlətin növbəti addımları Almaniyanın enerji infrastrukturunun istifadəsində iştirak edən Rusiya mülkiyyətinin ”Rusiya tərəfindən özbaşınalığa məruz qalmamasını” təmin etmək olacaq.

Qeyd edək ki, bir müddət bundan əvvəl Almaniyanın İqtisadiyyat və İqlim Mühafizəsi naziri Robert Habek Rusiyanın enerji resurslarının tədarükünün mümkün dayandırılmasından ehtiyat edərək, ”Qazprom”un alman müəssisələrinin milliləşdirilməsi planı hazırlamağa başlayıb. Bildirək ki, o bu sahədə tək deyil. Belə ki, Habekdən başqa digər yüksək vəzifeli məmurlar da Rusiyanın enerji resurslarından imtina etmək planı hazırlayırlar. Onlar onlar Rusiyanın ”Qazprom” və ”Rosneft”in törəmə şirkətlərini müsadirə etməyi və milliləşdirməyi təklif edirlər.

Yeri gəlmişkən, Almaniya kansleri Olaf Şolz da fövqəladə qaz tədbirlərinin hazırlanmasında iştirak edir.

***Ağasəf Babayev***

## “Avtobuslardan hələ də sallanan vətəndaşlar var”

**İstər taksi, istərsə də avtobus sürücüləri tərəfindən hər hansı bir yol qaydası pozurlarsa, bu zaman təbii ki, məsuliyyətə cəlb olunmalıdırlar”. Bu sözləri SİA-ya açıqlamasında yol hərəkəti qaydaları üzrə ekspert Elməddin Muradlı bildirib.**

Onun sözlərinə görə, yeri gəldikdə hətta onların cəzası digər sürücülərdən daha çox olur: ”Çünki avtobus sürücüsü sərxoş vəziyyətdə sükan arxasına keçirsə, ona heç bir istisna yoxdur. Bu zaman o, sürücülük hüququndan azad edilə və inzibati həbsə məhkum edilə bilər. Digər halda adi vətəndaş və ya sürücü olsa, bu halda isə 500 manat cərimə yazılır, hansı ki, bu zaman 5 bal yazılır. Avtobus sürücülərinə isə heç bir istisna yoxdur. Bu zaman artıq birbaşa inzibati həbs tətbiq olunur. Yəni, sürücülər 15 gündən başlayaraq 3 aya qədər həbs oluna bilərlər.



Taksi nişanı olmadan fəaliyyət göstərmək, qayda pozuntularına yol verdikdə də onların özünəməxsus cərimələri olur. Hazırda nəzarət o qədər güclü olmalıdır ki, heç kim qanunda nəzərdə tutulan qaydalardan boyun qaçıra bilməsin. Təəssüflər olsun ki, avtobus sürücüləri də taksi sürücüləri arasında bəziləri də bəzən məsuliyyətdən yayına bilirlər. Təəssüflər olsun ki, dayanacağa daxil ola bilmədikdə sürücülər 2-ci, hətta 3-cü zolaqda maşın saxlayırlar. Eyni zamanda, avtobuslardan hələ də sallanan vətəndaşlar görmək mümkündür.

Bundan əlavə taksi sürücüləri şit musiqilər qoşaraq insanları narahat edir, vətəndaşlarla qeyri-etik danışırlar. Bütün bu kimi problemlərin hər birinin mütləq şəkildə qarşısı alınmalıdır. Düşünürəm ki, zamanla bunları həll etmək olar. Sadəcə olaraq, bu proses bir az zaman tələb edir”.

***Səbinə Hüseynli***

ARAŞDIRMA

# Dilənçilik, yoxsa sənət?

***Küçədə əl açıb dilənən dilənçiyə pul verməyin dinimizə görə günah olub-olmadığını araşdırdıq. Bəs, gəlin görək Peyğəmbərimizin dilənənlərə münasibəti necə idi, ehtiyacı olanlar dilənə bilər?***

Dilənçilik insanların köməyə ehtiyacı olduğunu əsas gətirərək pul, yemək və s. şeylər istəməkdir. Bu yolla çörəkpulu qazanan adama dilənçi deyirlər. Az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə dilənçilərə daha çox rast gəlinir. Həmçinin, dilənçilik dünyanın ən qədim peşələrindən biridir.

Küçədə gedərkən yolun kənarında əllərini açıq gözləyib dilənən insanlara rast gəlirik. Allah rizası üçün etdiyimiz heç bir kö-



mək və yaxşılıq qarşılıqsız qalmaz. Kömək etdiyimiz insanın həqiqətən ehtiyacı olub-olmaması bu müddəanı dəyişdirmir. Bəzi insanlar var ki, onların həqiqətən qarınlarını doyurmağa pulları belə yoxdur. Amma günümüzdə kifayət qədər də saxtakarlıq edən insanlar var. Belə hallarda real ehtiyacı olan insanları tapmaq, onlara imkan daxilində kömək etmək lazımdır.



Dilənçilik bəzən dini səbəblərə görə edilir. Bəzi din və məzhəblərdə din xadimləri dilənçiliklə və ya sadəcə ianə ilə dolanırlar.

Bir çox ölkələrdə dilənçilik cinayət sayılmasa da, insanları dilənməyə məcbur etmək və ya savadsız insanlara qarşı zorakılıq etmək cinayətdir. İctimai asayişi pozduqları hallarda dilənçilər polis məmurları tərəfindən istədikləri yerdən uzaqlaşdırıla bilərlər.

### Birləşmiş Krallıq

Böyük Britaniyada 1824-cü il tarixli Evsizlər Qanununa əsasən,



dilənçilik cinayətdir, lakin həbslə cəzalandırılmır. Ümumilikdə isə dilənçilərə ictimai nəqliyyatdan istifadədən başqa heç bir müdaxilə edilmir.

### Rumıniya

Rumıniyada 1991-ci ildə qəbul edilmiş 61 saylı qanuna əsasən dilənçilik cinayət sayılır.

### Türkiyə

TCK-ya görə, dilənçilik cinayət olmasa da, insanları dilənməyə məcbur etmək və ya ağlı başında olmayan insanlara qarşı zorakılıq etmək cinayətdir.

Allah rizası üçün edilən yardım savabsız qalmaz. Qarşı tərəfin haqlı olub-olmaması bu müddəanı dəyişdirmir. Amma mümkün qədər real ehtiyacı olanları axtarmaq və ona uyğun kömək etmək lazımdır.

Göründüyü kimi, dilənçiliklə məşğul olanlar ya fiziki qüsurlarına görə iş tapa bilməyənlər, məsələn qocalar, şikəstlər, əlillər, xəstələr, ya da əlilliyinə baxmayaraq işləmək imkanı olmayanlardır. Borc istəyənə pul vermək sədəqə verməkdən daha savabdır.

2021-ci ildə Türkiyənin İzmir şəhərindəki Tarixi Kəməraltı bazarında dilənçilik edən şəxs polis qrupları tərəfindən yaxalanaraq üzərindən 1164 lirə aşkar edilmişdi. Dilənçinin çıxardığı pulun gündəlik qazancı olduğunu deməsi isə polislərə şok yaşadıb.

Turist vizası ilə dünyanın hər yerindən Dubaya gələn asiyalı peşəkar dilənçilərin əksəriyyəti ayda təxminən 70.000 dollar qazanır. Parlaq binaları və varlı sakinləri ilə tanınan Dubay ”dilənçilər cənnəti” kimi tanınmağa başlayıb. Yaxın Şərq mərkəzli xəbər qurumları dünyanın hər yerindən turist vizası ilə şəhərə gələn peşəkar dilənçilərin aylıq gəlirinin təxminən 70 min dollar olduğunu yazıb. Polis bunu eşidən ərəb və asiyalı dəstələrin şəhərə peşəkar dilənçilər də göndərdiyini bildirib.

Yüksək rütbəli bələdiyyə məmuru deyib ki, gündə ən azı 2 min dollar qazanan peşəkar dilənçilər xüsusilə cümə günləri məscidlərin qarşısında dilənçilik edirlər. Yerli xəbər təşkilatlarına görə, peşəkar dilənçilər xüsusilə varlı görünən insanları seçir və onlara ailələrinin küçələrdə yatması və ya müharibə bölgəsindən qaçması haqqında kədərli hekayələr danışaraq pul tələb edirlər. Bildirilir ki, BƏƏ prezidenti Xəlifə Bin Zayed Əl Nəhyan 2017-ci ili mərhəmət ili elan edərək, peşəkar dilənçilərin qazancını artırıb.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspertlərin fikirlərini öyrənib.



**”Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova:** ”Baxımsız, səfil həyat yaşayan, diləndirilən uşaqlarla bağlı problem bütün dünyada olduğu kimi bizdə də mövcuddur. Elə buna görə də Beynəlxalq Əmək Təşkilatı 12 iyun gününü Ümumdünya Uşaq Əməyinin İstismarına Qarşı Mübarizə Günü elan edib. Çünki uşaqları qorumaq, müdafiə etmək, bir sözlə, onların istismar olunmasına qarşı beynəlxalq səviyyədə iş aparmaq qlobal məsələyə çevrilib.

Ölkəmizdə də uşaq hüquqlarının müdafiəsi ilə bağlı çoxlu sayda qanunlar toplusu var. Lakin yetərli qanunvericilik bazasının olmasına baxmayaraq küçədə dilənən qaraçı uşaqlarından başqa adi azərbaycanlı ailələrin də uşaqlarının diləndiyinə rast gəlirik. Bununla bağlı polislərimiz reyd aparır, həmin uşaqları müvəqqəti sığınacaqlara yerləşdirirlər. Onları diləndirənləri cinayət məsuliyyətinə cəlb edirlər. Bu sahədə DİN-nin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin əməyini yüksək qiymətləndirmək lazımdır”.



**Yazıçı kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** ”Post-pandemiya və post-müharibə dövründən sonra bütün dünyanı əhatə edən böhran gözlənilən idi. Dünyanın bir hissəsi olan Azərbaycanda da bu çətinliklər müəyyən mənada insanların həyatında iqtisadi problemlər kimi özünü göstərib. Dövlət müəyyən sosial paketlər və yardımlarla nisbətən böyük əhali qruplarının pandemiyadan sonra özünə gəlməsinə kömək etmiş oldu. Eyni zamanda, koronavirusla bağlı aparılan vaksinasiya, müalicə xərcləri və digər iqtisadi paket yardımları vətəndaşların vəziyyətini bu ağır şəraitdə az da olsa yaxşılaşdırmış oldu. Lakin hər kəs barəsində bunu demək doğru olmaz. Çünki elə insanlar var ki, onlar bu vəziyyətin altından qalxa bilmədi. Belə vəziyyətdən bir çox insanlar artıq istifadə etməyə başladı. Xüsusən, gecə vaxtı polis nəzarəti zəif olan vaxtlarda qucağında uşaqla cavan qızlar və yanlarında yeniyetmə olan analar şəhərin kənar hissələrində dilənərək pul yığmağa çalışırlar.

Təbii ki, dilənçilik dünyanın hər yerində var. Amma Azərbaycanda bu halların çoxalması hər birimizi düşündürür. Bir qrup insanlar işləmək istəmir. Onlar ya az əmək sərf edilən işlərlə, ya da belə dilənçi şəbəkəsi yaratmaqla özlərini dolandırmağa çalışır. Dilənçilik yalnız real həyatda deyil, eyni zamanda, sosial şəbəkələrdə də adi hala çevrilib. Sosial şəbəkələrdə yarışlar keçirib insanlardan bəxşişlər istəyənlərə virtual dilənçilər deyə bilərik. Sözsüz ki, polislər onların bir çoxunu ifşa edir. Amma bütövlükdə, belə halların qarşısını almaq çox çətindir. Daha çox insan bu dilənçi şəbəkələrinin təsiri altına düşmədən onlara qarşı ictimai qınaq və məsuliyyət tələb edilməli, bu hallara qarşı mübarizə aparılmalıdır”.



**Din xadimi Mircəfər Eyyubov:** ”Ümumiyyətlə, ana öz övladına qayğısı, fədakarlığı ilə xarakterizə edilir. Hal-hazırkı mövcud durumu, çətin iqtisadi vəziyyəti əsas gətirərək övladını dilənçiliyə vadar edən ana Allah nəzərində və məntiqi baxımdan cinayətkardır. Belə analar qiyamət günü Allah qarşısında əməlinə görə cavab verəcək.

Təəssüf ki, dilənçilik artıq ehtiyac səviyyəsindən uzaqlaşaraq, mafyoz səviyyəyə çatıb. Dilənçilərin mütəmadi olaraq israrla eyni yerdə müxtəlif metodlarla dilənməsi onların səmimi olmadığının göstəricisidir. Bu baxımdan həm dünyada, həm də ölkəmizdə ciddi problemlər var. Dinimizdə dilənçiliyi peşəyə çevirmək günah sayılır. İnsan ehtiyacı üçün heç bir çarəsi olmasa, şəxsiyyəti, qüruru icazə versə dilənçilik etsə bu başa düşüləndir. Lakin digər hallarda dilənçilik etmək haramdır. Doğrudur, tövsiyə olunub ki, əl açana yardım edək. Amma həmin insanın bu işi peşəyə çevirməsi qəbuledilməzdir. Təbii ki, özünə hörmət edən insan bu cür işlərə əl atmaz”.

***Ayşən Vəli***

# 11 APREL - Azərbaycan

## xalqı növbəti dəfə də doğru və müdrik seçim etdi

2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı növbəti dəfə də doğru və müdrik seçim etdi və 86,03 faiz səs toplayan cənab İlham Əliyevi xalqımız yenidən Azərbaycan Respublikasının Prezidenti postunda görmək istədi və seçkilərin nəticələri bir daha Azərbaycan xalqının Heydər Əliyev siyasətinə sadiqliyini nümayiş etdirdi. Əslində, ümummilli liderimiz Heydər Əliyevin xeyir-duası ilə 2003-cü ildən başlanan yolu, Cənab İlham Əliyev yeni tarixə şəraitə, yeni çağırışlara uyğun olaraq uğurla və qətiyyətlə davam etdirir. Həmçinin, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin seçkilərdə parlaq qələbə qazanması Azərbaycan vətəndaşlarının sabitliyə, təhlükəsizliyə və davamlı inkişafa səs verməsinin əyani ifadəsidir. Azərbaycan xalqı doğru seçimini etməklə özünün siyasi iradəsini bütün dünyaya bir daha çatdırmış oldu. Bu qələbə bütövlükdə Azərbaycan xalqının, lider-xalq birliyinin sarsılmaz olduğunu bir daha sübut etməklə, həm də Azərbaycanda demokratiyanın növbəti təntənəsi oldu.



*MEHDİ BALABƏYOV,*
*YAP Şabran rayon təşkilatının sədri*

Ötən 4 il sübut etdi ki, xalq 11 apreldə öz seçimində yanılmayıb və yeganə düzgün qərar qəbul edib. Əslində, bu seçim həm də o demək idi ki, xalqımız cənab İlham Əliyevə səs verərkən Ümumilli Lider Heydər Əliyev siyasətinə yenidən səs vermiş oldu. Çünki Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 18 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 18 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Bu mərhələnin başlanğıc nöqtəsi 2003-cü il 15 oktyabr tarixli prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini toplayaraq (76,86 %) dövlətin ali rəhbəri seçilməsi ilə qoyuldu. Azərbaycan xalqı dostu düşməndən, halalı haramdan, yaxşını pisdən ayırmağı bacaran, seçkilər keçirməkdə kifayət qədər təcrübəsi olan müdrik xalqdır, onu bəlağətli çıxışlarla, boş vədlərlə aldatmaq çətindir. Bu günə kimi bütün seçkilərdə xalqımız düzgün seçim edib. Xalq öz qəlbinin hökmü ilə İlham Əliyev cənablarına səs verməklə, sabitliyə, tərəqqiyə, ulu öndər Heydər Əliyevin siyasi və iqtisadi kursunun davam etdirilməsinə səs verdi. Çünki Azərbaycan xalqı Prezident İlham Əliyevi sözü ilə əməli bir olan, bütün fəaliyyətini Vətənimizin inkişafına, tərəqqisinə, çiçəklənməsinə, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsinə, insanların həyat səviyyəsinin daim yüksəldilməsinə, işsizliyin və yoxsulluğun minimuma endirilməsinə, ölkəmizin bütün dünyada müsbət imicinin formalaşdırılmasına yönəldən və bu sahələrdə çox böyük uğurlar qazanan həqiqi lider kimi tanıyır.

### 2018-Cİ İL 11 APREL SEÇKİLƏRİ - İLHAM ƏLİYEVİN PARLAQ QƏLƏBƏSİ XALQIN BU SİYASƏTƏ TAM DƏSTƏYİNİN REALLIĞIDIR

11 aprel 2018-ci il prezident seçkiləri və bu seçkilərin nəticələri bir daha təsdiq etdi ki, xalqımız ulu öndər, dünya miqyaslı siyasətçi Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kursa alternativ görmür. Ədalətli, şəffaf demokratik prinsiplərin əsasında qanunauyğun, seçicilərin fəallığı və mütəşəkkiliyi ilə keçirilən seçkilərdə cənab İlham Əliyevin parlaq qələbəsi xalqın bu siyasətə tam dəstəyini ifadə etdi. Azərbaycan xalqı cənab İlham Əliyevə yenidən etimad göstərməklə həm də bu günə kimi görülmüş işlərə yüksək qiymət verdi. Çox saylı yerli və beynəlxalq müşahidəçilər, ictimaiyyət tərəfindən diqqətlə izlənilən seçkilərdə cənab İlham Əliyevin parlaq qələbəsi iqtidar-xalq birliyinin sarsılmaz olduğunu nümayiş etdirməklə yanaşı, bütövlükdə Azərbaycan xalqının zəfəridir. Bu zəfər ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95 illiyinə, müstəqil respublikamızın varisi olduğu müsəlman şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə mühüm töhfədir. Son 18 ildə beynəlxalq tələblər səviyyəsində həyata keçirilən hüquq islahatları deməyə əsas verir ki, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində hər bir vətəndaşın layiqli prezidenti olacağını bəyan etmiş möhtərəm İlham Əliyev bu vədini əməli işi ilə doğrultmuş, hüquq sisteminin daha da təkmilləşməsini uğurla təmin etmişdir. Ölkə vətəndaşları inanır ki, Azərbaycanda demokratiyanın və vətəndaş cəmiyyəti təsisatlarının inkişafına xidmət üçün bu islahatlar qarşıdakı illərdə də inamla və qətiyyətlə davam etdiriləcəkdir. Və bu gün son 18 ildir ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasına səbəbkar olub.

Son 18 ildə həyatımızın, demək olar ki, elə bir sahəsi yoxdur ki, orada qlobal müsbət dəyişikliklər baş verməsin, çox böyük uğurlara imza atılmasın. Bütün bunları xalq görür və yüksək qiymətləndirir. Fikrimizin təsdiqi kimi bəzi faktlara diqqət yetirək. Son 18 il ərzində bu yöndə respublikamızın həyatında qlobal mahiyyət kəsb edən 10-dək dövlət proqramları qəbul edilmiş və onlar çox böyük uğurla reallaşdırılmışdır. Son 18 il ərzində 3100-dən yuxarı məktəb, 650-dən çox tibb müəssisəsi tikilmiş və yuxad təmir edilmiş, 45-ə yaxın olimpiya idman kompleksləri inşa edilərək əhalinin istifadəsinə verilmişdir. Bütün bu işlər dövlət büdcəsindən ayrılmış vəsaitin hesabına həyata keçirilir.Ən əsası isə, 30 il həsrətində olduğumuz Qarabağ azadlığına qovuşub. Qarabağ Azərbaycandır reallığı, Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdi, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

Bütün dünya Azərbaycanın nə qədər güclü və qüdrətli dövlət olduğunu bir daha gördü. Dövlət başçımızın dediyi kimi: "...Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb...". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev düşmən tapdağından azad edilən Füzuli şəhərinə üçrəngli şanlı bayrağımızı ucaldanda demişdi.

Bəli, 30 ildən sonra düşməni doğma torpaqlarımızdan qovduq və öz el-obamıza, dədə-baba yurdumuza qayıtdıq. Müqəddəs bayrağımızı bir daha enməmək şərtilə ucaltdıq. Və bunu qələbəmizin memarı İlham Əliyev etdi. Müzəffər Ali Baş Komandan doğma Qarabağımıza qalib xalqın qalib sərkərdəsi kimi qədəm qoydu. Özü də Ermənistanla üçtərəfli bəyanat imzalanandan 6 gün sonra...".

44 günlük Vətən müharibəsi zamanı bütün dünya bir daha şahidi oldu ki, Azərbaycan həqiqətən də güclü dövlətdir, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzun illər ərzində həyata keçirdiyi ordu quruculuğu nəticəsində dünyanın ən güclü 50 ordusundan birinə çevrilən Azərbaycan Ordusu bu gün döyüş meydanında öz sözünü dedi və işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdi. Və Zəfər tarixini yazan cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə Müzəffər Ali Baş Komandan kimi adını əbədi olaraq tarixə yazdı. Budur, Azərbaycan xalqının Lideri olmaq. Budur, hər bir azərbaycanlının Prezidenti olmaq. Çünki Prezident İlham Əliyev son 18 illik prezidentlik fəaliyyəti dövründə verdiyi bütün vədlər gerçəkliyə çevrilir. Xalq inanır ki, Azərbaycanı qarşıdakı illərdə daha möhtəşəm uğurlar gözləyir. Azərbaycan Prezidenti İlham Əliyev bundan sonra dövlətimizə başçılıq etdiyi illərdə də Azərbaycan uğurla inkişaf edəcək, işğaldan azad edilmiş ərazilərimiz tezliklə yenidən qurulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ cənab Prezidentin dediyi kimi: "Əsl cənnət məkanına çevriləcək".

ŞƏRH



## "Brüssel görüşündə sülh müqaviləsinin imzalanması istiqamətində mühüm addımlar atıla bilər"

"Aprelin 6-da Prezident İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanla Brüsseldə görüşəcək və bu barədə anonsun yayılması da göstərir ki, Avropa İttifaqı Cənubi Qafqazda sülhün və təhlükəsizliyinin təmin olunmasında maraqlıdır". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.

Onun sözlərinə görə, görüş çərçivəsində ötən il dekabr ayının 14-də keçirilmiş təmaslara uyğun olaraq sülh gündəliyinin davam etdirilməsi gözlənilir: "Nəzərə almaq lazımdır ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin moderatorluğu ilə ötən il keçirilmiş görüş müsbət nəticələrlə yadda qaldı. Avropa İttifaqı regionda sabitliyin əmin-amanlığın təmin olunmasında genişmiqyaslı şəkildə fəaliyyət göstərir və bu fəaliyyətin nəticəsidir ki, Azərbaycanda Avropa İttifaqı ilə keçirilmiş danışıqlara xüsusi önəm verir. Bu formatda keçirilmiş danışıqlar Ermənistan Azərbaycan və Rusiya arasında keçirilmiş üç tərəfli danışıqlar formatın da bir alternativdir. Eyni zamanda, ATƏT-in Minsk Qrupunun dirçəldilməsi istiqamətində Ermənistan tərəfi bir sıra təşəbbüslər həyata keçirir və Avropa İttifaqı yavaş-yavaş ATƏT-in Minsk Qrupu formatını əvəz etməkdədir. Çünki tərəflər bu formatda keçirilmiş görüşlərə də xüsusi əhəmiyyət verirlər. Eyni zamanda, Azərbaycan tərəfi Ermənistanla münasibətləri normallaşdırılması və sülh müqaviləsinin imzalanması kontekstində rəsmi İrəvana 5 maddəlik təklif irəli sürmüşdür".

İlyas Hüseynov onu da bildirdi ki, təkliflər beynəlxalq hüququn fundamental norma və prinsiplərinə söykənir: "O cümlədən, münasibətlərin normallaşması üçün ən əlverişli təkliflər paketidir. Ermənistan tərəfi nə qədər bu təklifləri qəbul edərək sülh müqaviləsinin imzalanmasına müsbət yanaşarsa, bir o qədər Cənubi Qafqazda təhlükəsizlik mühiti güclənər. Digər önəmli məsələ, Avropa məkanını təmsil edən Polşanın və İtaliyanın xarici işlər nazirlərinin regiona son səfərləridir. Nəzərə almaq lazımdır ki, hər iki dövlət Avropa İttifaqını təmsil edir. Bu baxımdan, İtaliyalı və Polşalı diplomatların regiona səfərləri, həm də 6 aprel tarixində Prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşünün tənzimlənməsi və müəyyən mənada nəbz yoxlaması kimi dəyərləndirilir və eyni zamanda, Brüssel görüşündə sülh müqaviləsinin imzalanması istiqamətində də mühüm addımlar atıla bilər. Bu görüşə böyük ümidlər var. Çünki Ermənistanın parlamentinin spikeri Alen Simonyan da MDB Parlamentlərarası Assambleyada keçirilmiş görüşdə bildirmişdir ki, Ermənistan 5 maddəlik prinsiplərə müsbət yanaşır və onları qəbul edir. Lakin 5 maddəlik prinsipə hər hansısa əlavələrin edilməsi şərtlərin də irəli sürülməsi yolverilməzdir. Məsələlər məhz Azərbaycanın irəli sürdüyü təkliflər əsasında tənzimlənməli və yekun sülh müqaviləsi imzalanmalıdır".

***Gülyana***

# “Azərbaycan-ATƏT əlaqələri sülh və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir”

“ATƏT bölgədə sülh və təhlükəsizliyin möhkəmlənməsi, geniş əməkdaşlıq formatının yaradılması istiqamətində Azərbaycanın təşəbbüslərini də alqışlayır. Cənab Prezident İlham Əliyev martın 31-də ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunu qəbul edərəkən bildirdi ki, tərəflər arasında ikitərəfli yaxşı münasibətlər mövcuddur, əlaqələr güclü tərəfdaşlığımızı nümayiş etdirir. Zbiqnev Rau da cənab Prezidentə bəyan etdi iki, ATƏT post-müharibə dövründə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşacağına ümidvardır və bölgədə dayanıqlı sülhün təmin edilməsində öz dəstəyini göstərir. Eyni zamanda, ATƏT-in hazırkı sədr ölkəsi olan Polşa Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərinə maraqlı olduğunu bildirib ki, bu da münasibətlərimizin dinamikasına uyğundur”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Hüseynov bildirib.



Onun sözlərinə görə, ümumiyyətlə, ATƏT Qafqaz regionun lider ölkəsi olan Azərbaycanın regional siyasi-iqtisadi proqramlarda fəal rolunu yüksək dəyərləndirir və bu cür xoşməramlı niyyətlərin, əməkdaşlıq mühitinin Mərkəzi və Şərqi Avropa üçün də əhəmiyyətli hesab edir. Azərbaycanın hazırda regionun əsas nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilir və bu baxımdan bütün ölkələrin birgə əməkdaşlıq atmosferasında irəliyə doğru addım atması ATƏT-in də prinsiplərinə uyğundur: ”ATƏT-lə pozitiv əlaqələr həmçinin, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlıq məsələlərində də daim öz müsbət təzahürlərini göstərir.

Ölkəmizin Avropa İttifaqı ilə əlaqələri geniş sahələri, o cümlədən ilk növbədə, iqtisadi və siyasi islahatlara dəstəyi, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, infrastrukturun inkişafı və s. kimi müxtəlif çərçivələri əhatə etməkdədir. Tərəflər arasında imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, ticarət, sərmayə, qanunvericilik, elm və mədiyyət sahəsində mühüm əməkdaşlığın inkişafına səbəb olubdur. Həmçinin, Azərbaycan Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Aİ ilə qarşılıqlı birgə layihələrin icrasında fəal rol oynayır. Eyni zamanda, Azərbaycan həm Aİ tərəfindən, həm də Aİ-nin digər təşkilatlarla birgə əməkdaşlığı çərçivəsində müxtəlif sektorlar üzrə, enerji, nəqliyyat, təhsil, mədəniyyət, kənd təsərrüfatı, regional inkişaf, iqtisadi, siyasi və institusional islahatlar və digər sektorlarda çoxsaylı layihələr həyata keçirir. Azərbaycan hazırda çoxşaxəli enerji siyasəti yürütməklə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Ötən 15 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilib və enerji resurslarını şaxələndirərək yeni bazarlar əldə edib. Eyni zamanda, Azərbaycan bir neçə il əvvəl Cənub Qaz Dəhlizinə qoşularaq regionda ən nəhəng qaz marşrutlarının yaradılmasına nail olub. Azərbaycan tərəfindən TANAP və TAP kəmərlərinin qısa illər ərzində başa çatdırmaq böyük iradənin nəticəsi idi və 2020-ci ilin sonundan etibarən ölkəmiz Avropa İttifaqına qaz ixracını təmin etdi. Bu, bir daha Qərbin enerji təhlükəsizliyinin təmin edilməsində son illər respublikamızın artan rolunu və mövqeyinin daha da möhkəlnəndirdi. Qlobal enerji tranzitlərinin istifadəyə verilməsi ilə Azərbaycanın fəal etibarlı dövlət kimi etimadı yüksəldir. Azərbaycan hazırda Avropa bazarında enerjinin çoxşaxəliliyini və yeni resursların ixracını təmin etməyi bacaran ölkə kimi qlobal iqtisadi xəritədə yer alır. Bu dərin əməkdaşlıq Azərbaycan-Aİ əməkdaşlığının real əsasda inkişafı və Avropanın enerji təhlükəsizliyinin təmini üçün vacibdir”.

***Banuçiçək Hüseynli***

# Bizə həkim lazımdır

*FELYETON*



İndi deyəcəksiniz ki, bizim haramız xəstədir ki, həkim lazım ola? Lap tutalım ki, xəstəyik, sənə nə var, özümüz bilərik. Həkimə gedərik də özümüz bilərik, getmərik də. Müalicə olunarıq da özümüz bilərik, olmarıq da. Kim deyir ki, axı biz həkimə getmirik. Bir yerimiz ağrıyan kimi dərhal üz tuturuq həkimə. İndi XII-XV əsr deyil ki, evlərdə həkimsizlikdən ölüb, məhv olaq. Gedirik, sağ olsunlar, bir vərəq dərman yazırlar, gətirib edirik. İki-üç günə yaxşılaşırıq. Bir 10-15 gündən sonra əhvalımız yenidən xarablaşır. Yenə gedirik, yenə yazırlar, yenə müalicə olunuruq, yenə yaxşılaşırıq. Ta bundan artıq nə olmalıdır ki?

Həkimdən, xəstədən söz düşmüşkən, qonşumuzda Məmmədəli kişi var. Bu yaxınlarda yaman azarlamışdı. Oğlu da buralarda deyil, xaricdə təhsil alır. Bu kişi çox xəstəxanaya getdi, gəldi. Amma düzəlmədi ki, düzəlmədi. Dedik, ay Məmmədəli əmi, bir yaxşı həkimə görsən də. Gülümsəyib dedi ki, ay bala, həkimin də yaxşısı, pisi var məgər? Həkim elə həkimdir də. Dedik yox, ay Məmmədəli əmi, elə deyil, əlbəttə həkimin yaxşısı da var, pisi də. Nəinki həkimin, müəllimin, mühəndisin, fəhlənin də, xülasə, bütün peşə, sənət sahiblərinin yaxşısı da var, pisi də. Məsələn, həkim var ki, gedirsən, gəlirsən, gedirsən, gəlirən, axırda da ölürsən. Həkim də var ki, 2-3 dəfə müalicəsini alırsan, əvvəlkindən də gümrah adam olursan. Müəllim var ki, elm öyrədir, öyrənib adam olursan, müəllim də var ki, heç özü bir şey bilir ki, sənə də nə isə öyrətsin. Mühəndis var ki, işi işdi, mühəndis də var ki, gördüyü iş uçur camaatın başına, əcəlini gətirir. Fəhlə ey hələ. Fəhlə var ki, abad edir, fəhlə də var ki, abadı bərbad edir.

Nə isə. Məmmədəli əmiyə çox dedik, lakin o, az eşitdi. Vəziyyəti də gündən-günə pisləşməyə başladı. Axır ki, oğlu gəlib özünü yetirdi, atasını götürüb özü ilə xaricə apardı. Vallah orada nə etdilər, etmədilər, kişi qayıtdı, özü də buz baltası kimi.

Deyəsən yenə mətləbdənkənar söhbətlərə qızışıb əsl mətləbi unuduram. Keçim mətləbə. Əslində səhərdən bəri danışdıqlarımın deyəcəklərimə heç dəxli yoxdur, söhbət açıldı, dedim. Amma vallah, gerçəkdən bizə həkim lazımdır, yaxşı bir həkim. Tək xəstəmizə yox, uşaqlı-böyüklü, ağsaqqallı-ağbirçəkli, hamımıza həkim lazımdır. ”Nə üçün?”,- deyirsiniz. Vallah, deməyin, lazımdır. Bir yaxşı həkim lazımdır ki, deyə ki, ay cammaat, xəstələnib mənim yanıma gəlməzdən, hələ bir də məni bəyənib-bəyənməzdən əvvəl baxın, görün nə yeyirsiniz, nə içirsiniz? Necə qidalanırsınız, nə ilə qidalanırsınız?

Sözə bax, heç danışılmalıdır? Camaat nə yemir ki? Yerli məhsullar qalsın bir kənarda. Geni dəyişilib xarab olmaq bilməyən, par-par parıldayan kortofu, pomidoru, xiyarı yoxdu, düyüsü, noxudu yoxdu, toyuğu, əti, nə yoxdu bazarlarımızda? Biz də ki, şükür Allaha, nəyə simic olsaq da, yeməyimizə-içməyimizə pul xərcləməkdə əliaçığıq. Gedirik bazara, marketlərə, harada parıldayan, ”gözəl” görünən ərzaq, meyvə-tərəvəz var, onu alırıq. Bir az balacasını, yaraşıqsızını bəyənmirik ki, bəyənmirik. Deyirik ki, niyə biz yaxşısını, bahalısını yeməyik ki? Nə üçün yaşayırıq ki, bu dünyada? Səhərdən axşamadək çalışırıq ki, ucuz məhsul alıb yeyək? Alıb doldururuq çantalarımızı, gətirib yığırıb soyuducuya. Biz niyə nə yemirik ki, bu həkimlər bizə qida məsləhəti verələr?

Hələ şəhərlini qoyuram bir kənara ey. İndi kəndlərimizdə ağacının altına tökülən meyvəni kəndli yığıb doğrayıb verir mal-heyvana. Özü üçün gedib bazarlarda o parıldayan alma-armuddan, şaftalıdan, ərikdən alır. Bəzən düşünür ki, əşi ta əziyyət çəkib kartof, soğan, tərəvəz əkincə, payız dananı satıb qış tədarükünü edib yığaram başımın altına, yaza çıxaram. Nəyi pisdir ki? Biz özümüzü, görürsünüzmü, necə qoruyuruq, necə qədrimizi bilirik. Bizə həkim, filan lazım deyil. Biz nə yediyimizi də, nə içdiyimizi də yaxşı bilirik.

Vallah, mən qaldım deyəsən həkimlə bu camaatın arasında. Lakin bunların qalmaqalında arada ölsəm də, yenə deyəcəyəm: bizə həkim lazımdır. Ay qardaş, ay bacı, bilirəm hələlik bir yeriniz xəstə deyil, aydındır, öldürməyin məni. Amma vallah bizim hamımızın şüuru xəstədir. Elə həkim də buna görə lazımdır ki, ən birinci şüurumuzu müalicə etsin. Sonra bəlkə...

***Mətanət Məmmədova***

# “Böyük Qayıdış”la Qarabağda müasir özəl təsərrüfatçılıq qurulacaq

ŞƏRH



**Torpaq sahələrindən səmərəli istifadədə hər bir fermerin və kəndli ailəsinin gəlirlərinin artmasına təminat verə bilir**

44 günlük Vətən müharibəsilə əldə olunan qələbədən sonra ərazilərdə genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirilməkdədir. Paralel olaraq insanların öz doğma torpaqlarına qayıdışını təmin etmək məqsədilə, ilk növbədə, 30 il erməni işğalı altında olmuş ərazilər minalardan təmizlənir və vacib təhlükəsizlik tədbirləri həyata keçirilir. Bu hal dayanıqlı məskunlaşma üçün olduqca vacibdir. Belə bir təminatın ardınca Qarabağ İqtisadi Zonasında ”Ağıllı kənd” və ”Ağıllı şəhər” layihələri əsasında yeni və müasir təsərrüfat sahələri, xüsusən, kənd yerlərində əkinçiliyin və heyvandarlığın, qida və yüngül sənayenin mütərəqqi yarımsahələrinin yaradılması istiqamətində tez iqtisadi və sosial səmərə verən çevik təsərrüfatçı formalaşmalı, ərazi sağlam və abad yaşayış mühitinə çevrilməlidir.

Ağdam, Füzuli, Şuşa, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, və Kəlbəcərdən olan keçmiş məcburi köçkünlərlə 5 mart 2022-ci il tarixli görüşündə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru, ”Xarici Ticarətə dəstək” mərkəzinin rəhbəri İrşad Kərimli bildirmişdir ki, ”Böyük Qayıdış”la bağlı Qarabağ ərazisində müasir, özəl təsərrüfatçılıq təşəbbüsünün, xüsusən kənd təsərrüfatı kooperativlərinin yaradılmasının təşviqində ”Müstəqil Hüquq Mərkəzi”nin rəhbəri, hüquqşünas Aydın Kərimovun dəyərli və təcrübi fikirləri daha çox diqqəti cəlb etmişdir.

İşğaldan azad edilmiş yeni bölgənin Şərqi Zəngəzur və Qarabağ kimi iki böyük iqtisadi rayonun hər biri bir neçə inzibati rayonunu özündə birləşdirdiyindən əhalinin öz doğma torpaqlarında məskunlaşmasına konkret kənd, qəsəbə bölgüsü çərçivəsində deyil, inzibati rayon və daha yaxşı olardı ki, iqtisadi rayon bölgüsü çərçivəsində müasir təsərrüfatçılıqla məşğuliyyətin təminatına diqqət yetirməli və bu böyük qayıdışa sistemli, kompleks yanaşılsın. Məqsəd təsərrüfat obyekti kimi kənd təsərrüfatında torpağın əsas kapital olması və torpağı əkib-becərənlər və bütünlükdə faydalı təsərrüfatçılıq edənlər arasında həm iqtisadi və həm də sosial cəhətdən səmərəli bölünməsini təşkil etməkdir. Eyni zamanda, kəndli-ailə, fermer və ev təsərrüfatlarının gəlirli olması üçün birgə təsərrüfatçılıq formalarından daha mütərəqqi olanları xüsusən ixtisaslaşmış iri təsərrüfatlarla yanaşı kənd təsərrüfatı kooperativlərinin formalaşmasına da diqqəti artırmaqdır.

Azərbaycanın digər əraziləri ilə müqayisədə Qarabağ regionunun hər iki iqtisadi rayonunda reallaşacaq ”Ağıllı kənd” layihələrinə uyğun formalaşacaq həmin təsərrüfat formaları heç də sıfır nöqtəsindən başlamaqla (yəni dağınıq, xırda təsərrüfatları tədricən birgə təsərrüfatlara çevirməklə) deyil, müasir təsərrüfatçılığın tələblərinə uyğun olan torpağın və onunla əlaqəli mütərəqqi istehsal faktorlarının birləşməsinin yeni üsulları ilə yaradılacaqdır. Belə bir təcrübə 2016-cı ilin aprel döyüşləri ilə işğaldan azad edilən Cocuq Mərcanlı kəndinin torpaqlarında özünün ilk addımları ilə müsbət nəticə vermişdir. Torpaqla birbaşa əlaqəli istehsal faktorları fermerlər və digər fərdi mülkiyyət sahibləri birgə təsərrüfatlar yaradaraq öz aralarında bilik, peşə və fəaliyyət bölgüsü əsasında ixtisaslaşma aparmaqla birgə təsərrüfatlar (kooperativlər və yaxud fermer ittifaqları) yarada bilərlər. Bu digər şərtlər torpaq sahələrindən səmərəli istifadədə hər bir fermerin və kəndli ailəsinin gəlirlərinin artmasına təminat verə bilir. Eyni zamanda, belə təsərrüfatlar iri sərmayelərdən, güzəştli kreditlərdən, mövcud texnikadan qarşılıqlı istifadə ilə yanaşı, yeni texnika, toxum, kübrələr alınmasına, ödənişlərin isə yerli-yerində köçürülməsinə daim hazır olur.

***İrşad Kərimli***
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
***”Xarici Ticarətə Dəstək” mərkəzinin rəhbəri***
***i.e.d., prof.***

# Rusiyanın Azərbaycandakı ilk səfirinin xatirələri: ”Qarabağın mütləq öz əsl sahiblərinə qayıdacağına ürəkdən inanırdım”

**2022-ci il aprelin 4-də Azərbaycan və Rusiya diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü qeyd edirlər. Bu münasibətlə hər iki ölkənin prezidentləri İlham Əliyev və Vladimir Putin bir-birinə təbrik məktubları göndərərək, ikitərəfli münasibətlərin yüksək dinamikasını, ticarət-iqtisadi, nəqliyyat, enerji, humanitar və digər sahələrdə səmərəli əməkdaşlığı qeyd ediblər. ”Xüsusilə sevindirici haldır ki, diplomatik münasibətlərin qurulmasının cari yubiley ili Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamənin imzalanması ilə eyni vaxta təsadüf edir. Bu mühüm sənəd dövlətlərimiz arasında münasibətlərin 30 il ərzində əldə etdiyi keyfiyyətcə yeni, ən yüksək səviyyəni müəyyənləşdirdi”,- deyə Azərbaycan Prezidenti İlham Əliyev V.Putinə məktubunda xüsusilə qeyd edib.**

Rusiyanın Azərbaycandakı ilk səfiri, MDBMİ-ni və SSRİ Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasını bitirmiş karyeralı sovet diplomatı Valter Aleksandroviç Soniya ”Caliber” analilitik mərkəzinə müsahibəsində iki ölkənin münasibətləri haqda maraqlı məqamlara toxunub. Yazını oxucularımıza təqdim edirik.

Müstəqilliyin indi uzaqda olan ilk illərində Bakı və Moskvanın bu yola necə başladığını xatırlamaq daha maraqlı olacaq. Bu sətirlərin müəllifinin 2011-ci ildə Rusiyanın Azərbaycandakı ilk səfiri mərhum Valter Şoniya ilə etdiyi bu müsahibə bu işdə bizə kömək olacaq.

- Rusiyanın Azərbaycana ilk səfiri təyin olunduğunu Türkiyədə olarkən öyrəndim. O vaxt, artıq 4 il idi ki, SSRİ-nin (daha sonra Rusiyanın) Türkiyədəki səfirliyində müşavir-elçi vəzifəsində çalışırdım. Ya fevralın sonu, ya da 1992-ci ilin mart ayının əvvəli idi. Birdən Moskvadan teleqram gəlir, ondan öyrənirəm ki, məndən Rusiyanın Bakıdakı səfiri olmağımı xahiş ediblər. Məni Moskvaya ezam etdilər, orada Xarici İşlər Nazirliyində görüş keçirildi, iclasda Rusiyanın keçmiş İttifaqın yeni müstəqil dövlətlərindəki səfirləri iştirak etdilər.

O zaman Rusiyanın xarici siyasətində tam çaşqınlıq hökm sürürdü - dövlət xəzinəsində pul yox idi, Moskvada heç kim yeni müstəqil dövlətlərlə necə davranacağını bilmirdi, çünki prioritet tamamilə Qərblə münasibətlərə verilmişdi.

Rusiyanın Ermənistandakı o vaxtkı səfiri Vladimir Stupişinlə keçirdiyi döyüşləri təbəssümlə xatırlayıram. O, İrəvanda təmsil etdiyi ölkənin maraqlarını müdafiə etmək əvəzinə, erməniləri daha çox düşünürdü.

Aramızda ciddi fikir ayrılıqları olub. Mən onunla üz-üzə gəlmək istəmirdim, amma o, Azərbaycana və azərbaycanlılara qarşı odlu nifrətlə doymuş elə bəyanatlar verdi ki, mən kənarda qala bilmədim. Mən ümidsiz idim və Moskvanın Stupişinin bəyanatları ilə bağlı sərt açıqlama verəcəyini gözləyirdim. Təəssüf ki, heç bir bəyanat verilmədi və mən Azərbaycan və Ermənistan siyasətimizi balanslaşdırmaq üçün özüm açıqlama verməli oldum. Rusiyanın regionda ”ev heyvanlarının” və ya ”ögey övladlarının” olmasına icazə vermək mümkün deyildi, bu, böyük geosiyasi səhv olardı. Bizim üçün Azərbaycan, Ermənistan və Gürcüstan qardaş respublikalar idi. Onlardan hər hansı birini necə ayırmaq olar? Azərbaycana qarşı belə bəyanatlar necə ola bilərdi? Mənim üçün bu, böyük bir şok idi. Rusiya Xarici İşlər Nazirliyinin susqunluğu şəraitində mən özüm nəsə etməli oldum.






Təbii ki, İrəvan mənim bu hərəkətimdən razı qalmadı. Buna görə də Ermənistan rəhbərliyi məndən çox incidi. Sonra öyrəndim ki, Stupişinin arvadı erməni olub və o, onun təsiri altında Azərbaycan əleyhinə belə bəyanatlar verib. Təəssüflər olsun ki, o zaman Moskva Azərbaycan və Ermənistanla bağlı dəqiq davranış xəttini müəyyən etməmişdi. Stupişinin təxribatçı və şovinist bəyanatları ilə bağlı dəfələrlə Rusiya Xarici İşlər Nazirliyinə müraciət etmişəm. Lakin bu müraciətlər Rusiya Xarici İşlər Nazirliyinin o vaxtkı rəhbərliyi tərəfindən anlayışla qarşılanmayıb. Bir dəfə bizim şöbədə Stupişinlə az qala əlbəyaxa döyüşə girmişdik. Xarici İşlər Nazirliyində mənə dedilər: yaxşı, siz hər şeyi ayırd edəcəksiniz və hər şey yaxşı olacaq. Amma normal olmadı. Stupişin Ermənistanda öz bəyanatlarını verməkdə davam etdi və mən onu təkzib etməli oldum. Görünür, o zaman bizim Xarici İşlər Nazirliyi bu vəziyyətə uyğun gəlirdi və heç kimin Stupişinin hərəkətlərinə niyə reaksiya verməməsi mənim üçün tamamilə anlaşılmaz idi. Mən bu məsələni Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Kollegiyasında qaldırmağa çalışdım, onlar məni quru dinlədilər, lakin heç bir reaksiya olmadı..

Buna baxmayaraq, Azərbaycanda Rusiya səfiri kimi fəaliyyətimin ilk illərini çətinliklərinə baxmayaraq, hərarətlə xatırlayıram.

Azərbaycanda işlədiyim illər ərzində bu ölkəni, xüsusən də insanları çox sevmişəm. Bunlar boş sözlər deyil. Mən Azərbaycan cəmiyyətinin bütün təbəqələri ilə, siyasətçilərlə, mədəniyyət xadimləri ilə gözəl əlaqələr qurmuşam. Yeri gəlmişkən, mən Rusiyanın baş naziri vəzifəsini icra edən Yeqor Qaydarın iki dövlət tarixində ilk dəfə 1992-ci il sentyabrın 30-da Bakıya səfərini hazırlamalı idim. Bu, çox özünəməxsus səfər idi və bu səfər zamanı qərara alındı ki, Bakıda Rusiya səfirliyinin tikintisi üçün bizə yer və vəsait ayrılsın.

Yeri gəlmişkən, Yeqor Timuroviç çox müsbət təəssürat yaratdı, o, çox mehriban idi və Rusiya ilə Azərbaycan arasında dostluq münasibətləri qurmaq əzmində idi. O, Azərbaycanın o vaxtkı prezidenti Əbülfəz Elçibəylə görüşdü, mən o görüşdə iştirak edirdim. Mən deməzdim ki, Rusiya nümayəndə heyətinin səfəri belə böyük uğurla baş tutdu, çünki o vaxtkı Azərbaycan rəhbərliyi Moskva ilə kəsilmiş əlaqələri bərpa etməyə çalışmamışdı. Bununla belə, Qaydar həqiqətən də keçmiş dövlətlərarası əlaqələrin bərpasına töhfə vermək istəyirdi, lakin planını tam həyata keçirə bilmədi.

Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərdə dönüş Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra baş verdi.

Mən Heydər Əliyevi çox yaxşı tanıyırdım. Mən çox müdrik olan dövlət başçısı, böyük atasının işinin layiqli davamçısı olan İlham Heydəroviçlə də yaxşı tanışam. 1993-cü ildə Heydər Əliyevlə bərabər Azərbaycana tamam başqa hakimiyyət gəldi. Düzünü deyim: mən Heydər Əliyeviçlə tez-tez görüşürdüm. Üstəlik, o, mənə davamlı olaraq telefonla zəng etdi və lazım gələrsə, dərhal onunla əlaqə saxlamağımı söylədi. Və zəng etdim. O, tamamilə heyrətamiz, böyük dövlət xadimi idi. Mən Allaha şükür edirəm ki, Heydər Əliyev vaxtında Azərbaycanda hakimiyyətə gəldi və bununla da ölkəni xilas etdi. Heydər Əliyevlə işləmək mənim üçün çox xoş idi.

Lakin mənim Azərbaycanın yeni rəhbərliyi ilə səriştəli münasibətlər qurmağım Moskvanın xoşuna gəlmədi. Rusiyada mənim Qarabağla bağlı mövqeyimdən, eləcə də Xəzərin statusu və dəniz yataqlarının Azərbaycana məxsus olması ilə bağlı mövqeyimdən son dərəcə narazı idilər.

Nə isə, Rusiyanın o vaxtkı yanacaq və energetika naziri Yuri Şafrannik Bakıya gəldi. O, səfirliyə gəlib deyir ki, Yeltsinin tapşırığı ilə Azərbaycanla danışıq aparmaq üçün gəlib. Belə ki, o, Azərbaycan tərəfi ilə müqavilə imzalayıb, orada yazılıb: Xəzərin Azərbaycan sektoru. Yəni mən yox, Şafrannik belə bir termin işlədib. Mən bu termini işlətməyə başlayanda Moskvada kəskin narazılıq yaratdı. Səfirliyə Kozırevin imzası ilə heç bir sektorun olmadığını bildirən məktub gəlib. Belə çıxır ki, Xarici İşlər Nazirliyi Yanacaq və Energetika Nazirliyindən fərqli düşünüb. Hesab olunur ki, dəniz ümumi mülkiyyətdir. Onda təbii ki, hamı razılığa gəldi ki, Xəzər hövzəsinin hər bir ölkəsinin öz sektoru var. Görünür, Moskvada Şafrannikin əleyhinə olan o adamlar mənə qarşı təbliğat aparmağa başlayıblar ki, Rusiyanın Bakıdakı səfiri hansısa anlaşılmaz, azərbaycanpərəst mövqe tutur, deyirlər. Doğrudan da, mən bir çox məsələlərdə, xüsusən də respublika MDB-yə daxil olanda Azərbaycanın mövqeyini dəstəkləmişəm. Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti ilə birlikdə Moskvaya gələndə Rusiyanın o vaxtkı müdafiə naziri Pavel Qraçovla görüşdə azərbaycanlıların yanında əyləşdim. Qraçov dərhal qaşlarını qaldırıb soruşdu ki, niyə mən Rusiya səfiri Rusiya nümayəndə heyəti ilə deyil, Azərbaycan nümayəndə heyəti ilə masa arxasında oturmuşam. Mən isə cavab verdim ki, bununla mən Heydər Əliyeviçin Azərbaycanın MDB-yə daxil olması ilə bağlı qərarını tam dəstəklədiyimi göstərirəm. Mən hesab edirdim ki, Moskva üçün Cənubi Qafqazın əsas dövləti olan Azərbaycanla çox yaxşı münasibətlərin olması son dərəcə vacibdir.

Nəhayət, 1995-ci ildə Moskva Azərbaycandakı səfiri dəyişdirmək qərarına gəldi. Bundan sonra mənim səmimi qəlbdən sevdiyim Azərbaycana səfər etmək şansım qalmadı. Buna baxmayaraq, artıq diplomatik xidməti tərk edərək Gürcüstana qayıtdıqdan sonra Azərbaycan ətrafında baş verənləri izləməkdə davam etdim və Qarabağın mütləq öz əsl sahiblərinə qayıdacağına ürəkdən inanırdım”.

PS: Təəssüf ki, Valter Aleksandroviç bu qələbənin sevincli gününü görəcək qədər yaşamadı- o, 2014-cü ildə 78 yaşında vəfat etdi. O vaxtdan bəri Rusiyanın Azərbaycandakı bir neçə səfiri dəyişdi... Ancaq bu, artıq tamam başqa hekayədir...

***Müəllif - Bəhram Batıyev***
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə” istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
5 aprel
2022-ci il

# Mbappe: "Təklifləri nəzərdən keçirirəm"



**_Paris PSJ-sinin futbolçusu Kilian Mbappe mövsümün sonunda Paris təmsilçisindən ayrılıb-ayrılmayacağı barədə sualları cavablandırıb. Qol.az xəbər verir ki, 23 yaşlı hücumçu hələlik qərar vermədiyini deyib:_**

"Mən hələ gələcəyimlə bağlı qərar verməmişəm, bunu hamı bilir. Təklifləri nəzərdən keçirirəm. Qərar versəydim, artıq elan edərdim". Qeyd edək ki, Mbappenin PSJ ilə sözləşməsi mövsümün sonunda başa çatacaq. Onu "Real" heyətinə qatmaq istəyir.

# Saçların yaz tökülməsi

**Saçlar gözəllik nişanəsi, sağlamlıq göstəricisi və güzgüsüdür. Başda olan hər bir saçın ömrü orta hesabla 3-4 ildir. Buna görə də saçların daim tökülməsi normal və təbii qəbul edilir. Lakin yaz fəslində orqanizmdə mövsüm dəyişikliyi ilə əlaqədar olaraq bir sıra problemlər yaranır. Bunlardan biri də saçın sürətli tökülməsidir. Mütəxəssislər həmin halı mövsümlə əlaqələndirirlər.**

Həkim-trixoloq Aytəkin Quliyeva bu barədə maraqlı fikirlər bildirib. Həkim qeyd edib ki, qışdan çıxan saçların növbəti fəsildə tökülməsi normal haldır, çünki həmin fəsildə saçlar vitamin çatışmazlığı yaşayır, günəş işığı görmür, orqanizm avitaminozdan əziyyət çəkir, meyvə-tərəvəzlə qidalanmır: "İldə iki dəfə saçların fizioloji tökülməsi normal hal sayılır, çünki saçın üç sikli var: böyümə, dincəlmə və tökülmə fazası. Tökülmə fazası ildə iki-üç dəfə iki ay ərzində təkrarlana bilər. Bəzən bu tökülmə yaz və payız aylarında daha çox özünü büruzə verir. Hətta bəzən bunu patologiya hesab edirlər, lakin əslində bu, fizioloji bir haldır".

Bir çox hallarda saçların tökülməsinin səbəbi düzgün olmayan qulluqdur. Tələbat olmadan saçların tez-tez yuyulması, rənglənməsi, kimyəvi burulması, fenlə uzun müddət ərzində qurudulması və s. halları buna misal göstərmək olar. Saçlar getdikcə daha sürətlə tökülürsə, mütləq həkim-trixoloqa müraciət olunmalıdır, çünki saçların tökülməsinin səbəbi hər hansı bir daxili orqanın xəstəliyi də ola bilər: "Bunun qarşısını almaq üçün, ilk növbədə, yaz və payız aylarında saçlara daha çox diqqət artırmaq lazımdır. Daxili orqanlarda çatışmazlıq varsa, mütləq bunu həll etmək lazımdır. Buna ehtiyac olmadıqda medikamentoz müalicə edilməlidir. Xanımlar ev şəraitində yaz və payız saç tökülmələrinin qarşısını almaq üçün müəyyən maskalardan istifadə edə bilərlər", - deyə müsahibimiz bildirib.



Yazda saç tökülməsi ən çox qadınlarda müşayiət olunur. Xanımlar müxtəlif maskalardan istifadə etməklə həmin problemin öhdəsindən gələ bilərlər. Saçları yuduqdan sonra qaynadılmış soğan suyu ilə yaxalamaq tökülmənin qarşısını ala bilər. Mövsümündən asılı olaraq saçlarla problem yaşananda düzgün müalicə və qulluqla bunu aradan qaldırmaq mümkündür.

# B12 vitamini əsəb sisteminin sağlam qalması üçün önəmlidir

Sağlam həyat tərzi üçün qida rasionuna müxtəlif vitamin və minerallar daxil etmək lazımdır. B12 vitamini orqanizmimizin yaxşı fəaliyyət göstərməsi üçün zəruri hesab edilən B qrupuna daxil olan 8 həyati vacib vitamindən biridir. B12 vitamini qırmızı qan hüceyrələrinin (eritrositlərin) yaranmasına kömək edir, həmçinin əsəb sisteminin sağlam fəaliyyət göstərməsində mühüm rol oynayır. Bu barədə tibb saytlarında maraqlı məlumatlar dərc olunub.

B12 vitamini təbii halda bəzi ərzaqların tərkibində mövcuddur və yəqin ki, artıq siz onları qəbul edirsiniz. Bu vitaminin əmələ gəlməsi üçün ət, balıq, pendir və yumurta, o cümlədən heyvanın qaraciyəri və böyrəyi, molyusklar, siyənək, zənginləşdirilmiş dənli bitkilər, tunes, zənginləşdirilmiş qida mayası, alabalıq, qızılbalıq, süd və süd məhsulları yaxşı mənbə hesab olunur.

İnsanlar müxtəlif və balanslaşdırılmış pəhrizə riayət edərək onlara lazım olan B12 vitaminini tam əldə etmək imkanı qazana bilərlər. B12 vitamininin əlavələrini qəbul edənlərə bunu həddən artıq etmək məsləhət görülmür, çünki bu, zərərli ola bilər. 19-64 yaş arası olan insanlara hər gün təqribən 1,5 mikroqram B12 vitamini tələb olunur.

Vegetarianlar öz pəhrizlərindən lazım olan B12 miqdarını ala bilmir, çünki bu vitamin təbiətdə nə meyvənin, nə də tərəvəz və taxılın tərkibində mövcuddur.

# Xəbərdarlıq: Sosial şəbəkələr qızların psixi sağlamlığına daha erkən təsir edir

**_Psixoloqların sözlərinə görə, sosial şəbəkə platformaları müxtəlif yaşda uşaqların psixi rifahına onların cinsindən asılı olaraq təsir göstərə bilər._**

Tədqiqatçılar aşkarlayıblar ki, vaxtının böyük hissəsini sosial şəbəkələrdə keçirən 11-13 yaşlı qızlar bir ildən sonra öz həyatlarından daha az razı qalıblar. Eyni hal 14-15 yaşlı oğlanlar arasında baş verib. "MedikForum"un yazdığına görə, sosial şəbəkələrin bu halın baş verdiyi mühit olmasına baxmayaraq, digər yaş qruplarında sosial şəbəkələrlə rifah arasında heç bir bağlılıq aşkar edilməyib. Bundan başqa, 19 yaşı tamam olan şəxslər arasında da həyat məmnunluğunun aşağı düşməsi müəyyən edilib.




Kembric Universitetindən olan psixoloq-eksperimentator doktor Emi Orben nəticələr barədə deyib: "Biz sosial şəbəkələrin əksər hallarda həyatdan məmnun qalmadan xəbər verdiyi vaxtda cinslər arasında müəyyən yaş fərqlərinin mövcudluğunu aşkarladıq".

Tədqiqat psixi xəstəliklərdən müalicə almaq üçün müraciət edən gənclərin sayının artması ilə sosial şəbəkələr arasında əlaqəni müəyyən etmək məqsədi daşıyırdı. Alimlər aşkarlayıblar ki, müəyyən yaşlarda sosial şəbəkələrdən istifadə təqribən bir il sonra həyatdan məmnunluğun aşağı düşməsi ilə bağlı olur.

Tədqiqatda belə nəticə çıxarılmır ki, sosial şəbəkələr psixi rifaha ziyan vurur. Lakin tədqiqatçılar hesab edir ki, oğlanlarda və qızlarda müxtəlif dövrlərdə əmələ gələn "zəiflik boşluqları" ola bilər. Qızlar arasında depressiyanın daha yüksək səviyyəsi onların sosial şəbəkələrdə nə qədər vaxt keçirmələri ilə bağlıdır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**